87. Tamamlayın: "Fiziki şəxsin əmlakın təqdim edilməsindən yaranan zərəri həmin ildə kompensasiya edilə bilmirsə, o, ... sonrakı dövrə keçirilir və belə əmlakın təqdim edilməsindən götürülən gəlir hesabına kompensasiya edilir".

A) Gələcək üç ildən

B) Gələcək iki ilədək davam edən

C) Gələcək üç ilədək davam edən

D) Gələcək üç ildən beş ilədək davam edən

E) Gələcək iki ildən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

88. X və Y-i təyin edin:
"Müəssisənin gəlirlərdən çıxarılmasına yol verilən xərclərinin gəlirdən artıq olan hissəsi X davam edən sonrakı dövrə keçirilir və illər üzrə Y həmin illərin mənfəəti hesabına kompensasiya edilir".

A) Beş ilədək; bərabər proporsiyalarda

B) Üç ilədək; məhdudiyyət qoyulmadan

C) Üç ilədək; bərabər proporsiyalarda

D) Beş ilədək; məhdudiyyət qoyulmadan

E) Dörd ilədək; bərabər proporsiyalarda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

89. A və B-ni təyin edin:
"Rezident müəssisə tərəfindən ödənilən A ödəmə mənbəyində B dərəcə ilə vergi tutulur".

A) Dividenddən; 15 %

B) Əmək haqqından; 10 %

C) Dividenddən; 20 %

D) Əmək haqqından; 20 %

E) Dividenddən; 10 %

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

90. Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq kimi alınan gəlirdən ödəniş mənbəyində nə qədər vergi tutulur?

A) 10 % dərəcəsi ilə

B) Gəlir 2500 manatadək olduqda məbləğin 14%-i, 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi həcmində

C) 20 % dərəcəsi ilə

D) Gəlir 2500 manatadək olduqda məbləğin 14%-i, 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 35 faizi həcmində

E) 22 % dərəcəsi ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

91. Vergi ödəyicisi vergi uçotunun aparılması üçün hesablama metodundan istifadə etdikdə, xərcin çəkilməsi vaxtı aşağıdakı hansı müddəanın kombinasiyası ilə təyin olunur?

A) Xərcin faktiki çəkildiyi vaxt

B) Nağd pul vəsaitinin ödənildiyi

C) Vergi ödəyicisinin birmənalı olaraq maliyyə öhdəliklərini qəbul etdiyi vaxt

D) Vergi ödəyicisi qarşısında öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt

E) Borc öhdəlikləri üzrə faizlər ödənilərkən və ya əmlakın icarəyə götürülməsi müqabilində ödəmə həyata keçirildiyi vaxt

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

92. Qeyd olunan hallardan hansı maliyyə lizinqinə uyğun deyil?

A) İcarə müddəti qurtardıqdan sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulur, yaxud icarə müddəti qurtardıqdan sonra icarəçi əmlakı müəyyən edilmiş və ya qabaqcadan güman edilən qiymətlərlə almaq hüququna malikdir

B) İcarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75 faizindən artıqdır

C) İcarə müddəti qurtardıqdan sonra əmlakın qalıq dəyəri icarənin əvvəlinə onun bazar qiymətinin 20 faizindən azdır

D) İcarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlanmışdır və icarə müddəti qurtardıqdan sonra icarəçidən başqa heç kəs tərəfindən istifadə edilə bilməz

E) İcarə haqqının ödəniləcək məbləği əmlakın icarənin əvvəlinə olan bazar qiymətinin ən azı 80 faizinə bərabərdir və ya ondan artıqdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

93. Aşağıdakılardan hansı əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin cari vergi ödəmələri üzrə qaydalara ziddir?

A) Cari vergi ödəmələri müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün əvvəllər fəaliyyəti olmayan vergi ödəyicisindən ödənilməmiş cari vergi ödəmələrinə görə 0,1 faiz tutulur

B) Ödənilmə vaxtı keçmiş və artıq ödənilmiş vergilər üzrə faiz aparılmış vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergilər üzrə cari vergi ödəmələrinə münasibətdə bütün ötmüş müddətə ancaq bir ildən çox olmamaq şərti ilə tətbiq edilir

C) Əvvəllər fəaliyyəti olmayan vergi ödəyicilərinin mənfəət vergisi və ya gəlir vergisi üzrə cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla müvafiq vergi dərəcələrinə əsasən hesablanır

D) Cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 50 faizindən az olmamalıdır

E) Əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidirlər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

94. Vergi ödəyicisi olan fiziki şəxsin uçotdan çıxarılması üçün aşağıdakı hallardan hansı keçərli deyildir?

A) Fəaliyyətinə xitam verildikdə

B) Vəfat etdikdə

C) Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş sayıldıqda

D) Hesabat dövrünü zərərlə başa vurduqda

E) Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

95. Verginin hesabatda göstərilməli olan məbləği 48000 manatdır. Vergi ödəyicisi ödəməli olduğu məbləğin 6000 manatını yayındıraraq hesabatda 42000 manat göstərmişdir. Belə olduğu halda vergi ödəyicisinə hesablanmalı olan maliyyə sanksiyasını müəyyən edin.

A) 5000 man

B) 6000 man

C) 3000 man

D) 4000 man

E) 2000 man

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

96. Vergi ödəyicisi 8000 manat dəyərində spirtli içki istehsal etmiş, 5800 manat dəyərində Əlavə Dəyər Vergisinə cəlb olunan mal idxal etmiş və 1200 manat dəyərində maliyyə xidməti göstərmişdir. Bunları nəzərə alaraq Əlavə Dəyər Vergisinə cəlb olunan əməliyyatların məbləğini tapın.(Müəssisənin bütün satışları əlavə dəyər vergisindən azad deyil)

A) 13800 man

B) 15000 man

C) 19800 man

D) 20000 man

E) 11500 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

97. İstehsal müəssisəsinin işçilərinin 50 faizi 18 yaşına çatmamış əlillərdən və sağlamlıq imkanları məhdud olan şəxslərdən ibarət olduğu halda müəssisənin mənfəəti 88600 manat olmuşdur. Verilənləri nəzərə alaraq mənfəət vergisini hesablayın.

A) 8860 man

B) 17720 man

C) 7500 man

D) 8200 man

E) 12500 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

98. Vergi güzəşti olmayan fiziki şəxsin aylıq əmək haqqı gəliri 3800 manat olduğu halda vergi ödəyicisinin gəlir vergisini hesablayın.

A) 532 man

B) 648 man

C) 675 man

D) 598 man

E) 650 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

99. Bakı şəhəri üzrə qeydiyyatda olan sadələşdirilmiş vergi ödəyicisinin gəliri 450 manatdır. Bununla yanaşı fiziki şəxsin əsas iş yerindən aldığı əmək haqqı 600 manatdır. Belə olan halda fiziki şəxsin büdcəyə ödəməli olduğu ümumi vergi məbləğini hesablayın.

A) 58 man

B) 63 man

C) 78 man

D) 81 man

E) 75 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

100. Fiziki şəxsin mikro sahibkarlıq fəaliyyətindən əldə etdiyi illik gəliri 55000 manat təşkil etdiyi halda vergi ödəyicisinin büdcəyə ödəməli olduğu verginin məbləğini hesablayın.

A) 7700 man

B) 11587 man

C) 2750 man

D) 11550 man

E) 7954 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

101. Azərbaycan Respublikasının Milli Qəhrəmanının əsas iş yerindən əldə etdiyi gəliri 970 manatdır. Vergi ödəyicisinin vergi borcunu hesablayın.

A) 51,80 man

B) 135,80 man

C) 93,60 man

D) 78,10 man

E) 65,40 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

102. Əlavə Dəyər Vergisi ödəyicisi dövlət büdcəsinə 1500 manat məbləğində Əlavə Dəyər Vergisi ödəməlidir. Lakin vergi ödəyicisi vergini vaxtında hesablamamışdır. Bu qayda pozuntusuna görə tətbiq edilən maliyyə sanksiyasını hesablayın.

A) 270 man

B) 380 man

C) 750 man

D) 455 man

E) 1500 man

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

103. Vergitutma elementləri hansı deyil ?

A) Vergitutma obyekti

B) Vergitutma bazası

C) Vergi dövrü

D) Vergi dərəcəsi

E) Vergi yükü

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

104. Operativ vergi nəzarəti harada keçirilir?

A) Yerlərə getmədən keçirilir

B) Bəyannamələrə əsasən aparılır

C) Fiziki və hüquqi şəxslərin gəlir götürmək üçün istifadə etmədikləri binalarda

D) Anbarlarda

E) Şəxsi nəqliyyat vasitələrində

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

105. Muzdlu işlə əlaqədar alınan gəlirə aşağıdakılardan hansı aiddir?

A) Sahibkarlıq fəaliyyətindən gəlirlər

B) Qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlər

C) Əsas vəsaitlərin təqdim edilməsindən gəlirlər

D) Royalti

E) İşəgötürənin öz işçisinə malı hədiyyə şəklində verməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

106. Aşağıdakı hansı hallarda əmlak icarəsi maliyyə lizinqi sayılmır?

A) İcarə müddəti bitdikdən sonra əmlakın mülkiyyətə verilməsi nəzərdə tutulduğu halda

B) İcarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 75%-dən artıq olduğu halda

C) İcarəyə götürülən əmlak icarəçi üçün sifarişlə hazırlandığı, icarə müddəti bitdikdən sonra icarəçidən başqa heç kimə verilmədiyi halda

D) İcarə haqqının ödəniləcək məbləği əmlakın, icarənin əvvəlinə olan bazar qiymətinin 90%-nə bərabər olduğu halda

E) İcarə müddəti icarəyə götürülən əmlakın istismar müddətinin 50%-nə bərabər olduğu halda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

107. Aşağıdakılardan hansı vergitutmanın formasına aiddir?

A) Məlumat üzrə

B) Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi üzrə

C) Sərəncam üzrə

D) Xəbərdarlıq üzrə

E) Bəyannamə üzrə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

108. Aşağıdakılardan biri vergi ödəyicilərinin vəzifələrinə aid deyildir?

A) Vergi orqanlarından vergi ödəyicilərinin eyniləşdirmə nömrəsini almaq

B) Vergi hesabatını təqdim etmək

C) Vergitutma obyektlərinin uçotunu aparmaq

D) Vergi yoxlaması ilə bağlı tərtib edilmiş aktların və vergi orqanlarının qərarlarının surətini almaq

E) Qanunla müəyyən edilmiş vergiləri ödəmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

109. Aşağıda göstərilənlərdən hansı vergitutma məqsədi ilə i.,inin vergi tutulan gəlirinə daxil deyildir?

A) İşəgötürən tərəfindən ödənilən sığorta haqları

B) İşçinin işəgötürənə olan borcunun bağışlandığı halda həmin məbləğ

C) Muzdlu işlə əlaqədar gəlir

D) İş yerindən alınmış hədiyyənin bazar qiyməti ilə dəyəri

E) Vergi ödəyicisinin ailə üzvündən qalan mirası

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

110. Azərbaycanda tətbiq olunan vergi amortizasiyası aşağıdakı metodlardan hansıdır?

A) Azalan qalıq metodu

B) Xətti metod

C) Faydalı xidmət müddəti illəri rəqəmlərinin cəmi metodu

D) İlkin ayırma metodu

E) Dərhal silinmə metodu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

111. Azərbaycan Respublikasının Vergi Məcəlləsi aşağıdakı qaydalardan hansını müəyyən etmir?

A) Vergi ödəyicilərinin təsərrüfat planının hazırlanma qaydasını

B) Vergi ödəyicilərinin hüquq və vəzifələrini

C) Vergi nəzarətinin forma və metodlarını

D) Vergi qanunvericiliyin pozulmasına görə məsuliyyəti

E) Dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydasını

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

112. Naxçıvan Muxtar Respublikasında və bələdiyyələrdə vergitutmanın ümumi əsasları hansı qanunvericilik bazasına əsasən tənzimlənir?

A) Naxçıvan Muxtar Respublikası və bələdiyyələrə dair qanunvericilik aktına əsasən

B) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən

C) Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən

D) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən

E) Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

113. Aşağıdakılardan hansı vergi ödəyicisinin hüququna aid deyildir?

A) Vergi orqanlarından vergi qanunvericiliyinin tətbiq edilməsinə dair yazılı izahatlar almaq

B) Artıq ödənilmiş və ya tutulmuş vergilərin vaxtında geri qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək

C) Vergi münasibətlərində bilavasitə və ya öz nümayəndəsi vasitəsi ilə iştirak etmək

D) Kommersiya və ya vergi sirrinin qorunmasını tələb etmək

E) Nəzarət kassa aparatının alınması və quraşdırılmasını vergi orqanından tələb etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

114. Vergi ödəyicisi vergi orqanı qarşısında hansı tələbi qoya bilməz?

A) Vergi orqanlarında müəyyən edilmiş qaydada nəzarət –kassa aparatının müəyyən olunmuş modelini sifariş etmək

B) Vergi ödəyicisinin bəyannaməsinin doldurulmasını vergi orqanından tələb etmək

C) Vergi məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi güzəştlərindən istifadə etmək

D) Vergi yoxlaması ilə bağlı tərtib edilən aktların və ya protokolların sürətinin tələb etmək

E) Vergi risklərinin azaldılması məqsədi ilə Vergi partnyorluğu sazişi bağlamaq üçün vergi orqanına müraciət etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

115. Aşağıdakılardan hansı vergi agentinin vəzifəsinə aid deyildir?

A) Vergi ödəyicisinin vergi orqanında qeydiyyatdan keçməsini tələb etmək;

B) Müvafiq vergiləri hesablamaq, vergi ödəyicisindən tutmaq və təyinatı üzrə köçürmək

C) Vergi ödəyicisindən vergilərin tutulması mümkün olmadıqda bu barədə vergi orqanına 30 gün ərzində məlumat vermək

D) Vergi ödəyicisinə ödənilən gəlirlərin və təyinatı üzrə ödənilən vergilərin hər bir vergi ödəyicisi üzrə uçotunu aparmaq

E) Vergilərin hesablanmasının, tutulmasının və ödənilməsinin düzgünlüyünə nəzarət etmək üçün zəruri sənədləri vergi orqanlarına vermək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

116. Dövlət vergi orqanlarının təyinatına aşağıdakılardan hansı aid deyildir?

A) Vergi orqanları vergi məsələləri ilə bağlı gömrük orqanının səlahiyyətlərini həyata keçirmək hüququna malikdir

B) Vergi orqanları öz səlahiyyətləri çərçivəsində hüquq mühafizə orqanlarının səlahiyyətlərini həyata keçirir

C) Vergi orqanları öz fəaliyyətlərini yerli dövlət hakimiyyəti orqanlarından asılı olmayaraq müstəqil həyata keçirir

D) Vergi orqanları tərəfindən qanunvericiliyə əsasən qəbul edilən qərarların icrası bütün hüquqi və fiziki şəxslər üçün məcburidir

E) Vergi orqanları məhkəmələrə iddia ərizələrinin verilməsi üçün dövlət rüsumundan azaddırlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

117. Neft sektorunda çalışan işçinin əmək haqqısı 800 azn hesablanmışdırsa, işçidən və müəssisədən DSMF-yə ödəniləcək məblәgi təyin edin.

A) 186 azn

B) 200 azn

C) 80 azn

D) 230 azn

E) 134 azn

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

118. Vergi orqanlarının hüquqlarına aşağıdakılardan hansı aid deyildir?

A) Vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək

B) Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi yoxlamalarını həyata keçirmək

C) Vergi ödəyicisinin gəlir götürmək üçün istifadə etdiyi istehsal, anbar və ticarət binalarında xronometraj qaydada müşahidə həyata keçirmək

D) Vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını tələb etmək

E) Ödənilməmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsini vergi ödəyicisindən tələb etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

119. Aşağıdakılardan hansı vergi nəzarətinə aid deyildir?

A) Operativ vergi nəzarəti

B) Vergi ödəyicilərinin uçotu

C) Kameral vergi yoxlaması

D) Daxili nəzarət

E) Səyyar vergi yoxlaması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

120. Aşağıda göstərilənlərdən hansılar vergi uçotunda qeydiyyata durmaya bilər?

A) Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri

B) Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslər

C) Bəyannamə verməli olan rezident fiziki şəxslər

D) Vergi ödəyicisinin filial və nümayəndəlikləri

E) Azərbaycan Respublikası ərazisində gəlir əldə edən qeyri-rezident fiziki şəxslər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

121. Sahibkarlıq fəaliyyəti göstərən müəssisələrin filial və nümayəndəlikləri vergi uçotuna durmaq üçün nə zaman ərizə təqdim etməlidirlər?

A) Filial və nümayəndəliyin yaradılmasından sonra 30 gün ərzində

B) Filial və nümayəndəliyin yaradıldığı gün

C) Filial və nümayəndəliyin yaradılmasından sonra 15 gün ərzində

D) Filial və nümayəndəliyin yaradılmasından 15 gün əvvəl

E) Filial və nümayəndəliyin yaradılmasından sonra 10 gün ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

122. Vergi ödəyicisi olan hüquqi şəxslər uçota alınmaq üçün ərizə ilə birlikdə vergi orqanına hansı sənədlərin surətlərini təqdim etməlidirlər?

A) Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə, nizamnamə, rəhbərin şəxsiyyətini təsdiq edən sənəd və olduğu yer haqqında məlumat

B) Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə, nizamnamə, rəhbərin təyin olunması və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlər, rəhbərin şəxsiyyətini təsdiq edən sənəd və olduğu yer haqqında məlumat

C) Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə, rəhbərin təyin olunması və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlər, rəhbərin şəxsiyyətini təsdiq edən sənəd və olduğu yer haqqında məlumat

D) Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə, nizamnamə, rəhbərin təyin olunması və hüquqi şəxsin ünvanını təsdiq edən sənədlər

E) Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamə, nizamnamə, hüquqi şəxsin ünvanını təsdiq edən sənədlər, rəhbərin şəxsiyyətini təsdiq edən sənəd və olduğu yer haqqında məlumat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

123. Kameral vergi yoxlamasının keçirilmə yerləri aşağıdakılardan hansıdır?

A) Yerlərə getmədən keçirilir

B) Vergi ödəyicisinin ofis binasında sənədlərə əsasən keçirilir

C) Vergi ödəyicisinin anbarlarında keçirilir

D) Vergi ödəyicisinin ticarət binasında keçirilir

E) Vergi ödəyicisinin istehsal binasında keçirilir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

124. Kameral vergi yoxlaması neçə iş günü müddətində keçirilir?

A) Vergi bəyannaməsinin vergi ödəyicisinə təqdim edildiyi gündən 15 iş günü müddətində

B) Vergi bəyannaməsinin vergi ödəyicisinə təqdim edildiyi gündən 5 iş günü müddətində

C) Vergi bəyannaməsinin vergi ödəyicisinə təqdim edildiyi gündən 40 iş günü müddətində

D) Vergi bəyannaməsinin vergi ödəyicisinə təqdim edildiyi gündən 10 iş günü müddətində

E) Vergi bəyannaməsinin vergi ödəyicisinə təqdim edildiyi gündən 30 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

125. Kameral vergi yoxlaması zamanı tələb olunan, dəqiqləşdirilmiş hesabat neçə iş günü müddətində vergi orqanına təqdim edilməlidir?

A) 10 iş günü müddətində

B) 15 iş günü müddətində

C) 20 iş günü müddətində

D) 30 iş günü müddətində

E) 5 iş günü müddətində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

126. Səyyar vergi yoxlamasının növləri aşağıdakılardan hansılardır?

A) Növbəti və növbədən kənar

B) Daxili və xarici

C) Qısa müddətli və uzunmüddətli

D) Məcburi və könüllü

E) Ümumi və xüsusi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

127. Növbəti səyyar vergi yoxlamasının keçirilməsindən neçə gün əvvəl vergi ödəyicisinə bildiriş göndərilir?

A) Vergi yoxlamasına başlamazdan azı 5 gün əvvəl

B) Vergi yoxlamasına başlamazdan azı 7 gün əvvəl

C) Vergi yoxlamasına başlamazdan azı 15 gün əvvəl

D) Vergi yoxlamasına başlamazdan azı 10 gün əvvəl

E) Vergi yoxlamasına başlamazdan azı 2 gün əvvəl

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

128. Səyyar vergi yoxlamasının həyata keçilirməsi üçün vergi ödəyicisinə təqdim olunan bildirişdə aşağıdakı məlumatlardan hansılar göstərilməlidir?

A) Vergi yoxlamasının keçirilmə tarixi, yoxlanılacaq sənədlərin adları, vergi orqanının və vergi ödəyicisinin hüquq və vəzifələri

B) Vergi yoxlamasının keçirilmə müddəti və tarixi, yoxlanılacaq sənədlərin adları, vergi yoxlamasının əsası

C) Vergi yoxlamasının keçirilmə vergi orqanının və vergi ödəyicisinin hüquq və vəzifələri

D) Vergi yoxlamasının əsası, keçirilmə tarixi, vergi orqanının və vergi ödəyicisinin hüquq və vəzifələri

E) Vergi yoxlamasının keçirilmə tarixi, yoxlanılacaq sənədlərin adları, vergi orqanının hüquq və vəzifələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

129. Növbəti səyyar vergi yoxlaması il ərzində neçə dəfə keçirilə bilər?

A) Təqvim ili ərzində 1 dəfədən çox keçirilə bilməz

B) Təqvim ili ərzində tələb olunan sayda keçirilə bilər

C) Təqvim ili ərzində 2 dəfədən çox keçirilə bilməz

D) Təqvim ili ərzində 5 dəfədən çox keçirilə bilməz

E) Təqvim ili ərzində 4 dəfədən çox keçirilə bilməz

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

130. Səyyar vergi yoxlamasının keçirilmə müddəti hansı halda uzadıla bilər?

A) Vergi orqanları tərəfindən göndərilən sorğulara, cavabların alınma müddəti cavab göndərən şəxslər tərəfindən pozulduqda

B) Vergi ödəyicisinin xahişi ilə

C) Yoxlamanı aparan vergi orqanının səhhətində problem yarandıqda

D) Yoxlamanın aparılması üçün zəruri olan sənədlər təqdim edilmədikdə

E) Məhkəmənin qərarı ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

131. Növbədənkənar vergi yoxlaması vergi orqanları tərəfindən hansı halda keçirilə bilməz?

A) Vergi yoxlamasının nəticələri üzrə tərtib edilmiş aktda dürüst olmayan məlumatlar aşkar edildikdə

B) Artıq ödənilmiş vergilərin, faizlərin, maliyyə sanksiyalarının qaytarılması ilə bağlı vergi ödəyicisindən ərizə daxil olduqda

C) Məhkəmə və ya hüquq mühafizə orqanlarının yoxlamanın keçirilməsi barədə müvafiq qərarı olduqda

D) Vergi hesabatı sənədləri müəyyən edilmiş müddətdə təqdim edildikdə

E) Yoxlamanın keçirilməsi ilə bağlı vergi ödəyicisi ərizə ilə müraciət etdikdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

132. Aşağıdakılardan hansı operativ vergi nəzarətinin keçirilməsi üçün əsas deyildir?

A) Vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması zamanı aşkar edilmiş faktlar

B) Vergi orqanına daxil olan mənbəyi bəlli məlumatlar

C) Vergi ödəyicisi, vergi orqanının qayda pozuntusunu aradan qaldırılması ilə bağlı tələbinə əməl etmədikdə

D) Qanunvericiliyin sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən pozulmasına dair vergi orqanının əlində kifayət qədər əsası olduqda

E) Vergi ödəyicisi materialların uçotunu düzgün aparmadıqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

133. Nəzarət–kassa aparatının çeklərində göstərilməli olan məlumatlara aşağıdakılardan hansı aid deyildir?

A) Vergi orqanının adı

B) Vergi ödəyicisinin adı

C) Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi

D) Obyektin adı və yerləşdiyi ünvan

E) Çekin vurulma tarixi və saatı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

134. Aşağıdakılardan hansı vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən hal deyildir?

A) Hüquq pozuntusu vergi ödəyicisi tərəfindən məqsədli şəklidə törədilmədikdə

B) Vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusu hadisəsinin olmaması

C) Vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunda şəxsin təqsirinin olmaması

D) Vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunu törədən fiziki şəxsin həmin əməli törətdiyi anda məsuliyyətə cəlb etmə yaşına çatmaması

E) Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb etmə müddətinin qurtarması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Z.H.Rzayev. Vergi Menecmenti. Bakı, 2007

135. Aşağıdakılardan hansı qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirə aid deyildir?

A) Muzdlu işlə əlaqədar alınan gəlir

B) Faiz gəliri

C) Dividend gəliri

D) Əmlakın icarəyə verilməsindən gəlir

E) Royalti gəliri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

136. Vergi orqanlarının qərarlarından və ya vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən şikayət aşağıda göstərilən orqanlardan hansına verilir?

A) Yuxarı vergi orqanına

B) Nazirlər kabinetinə

C) Ərazi üzrə vergi orqanına

D) Gömrük orqanına

E) Xüsusi rejimli vergi idarələrinə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

137. Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razılaşmadıqda aşağıda göstərilən tədbirlərdən hansını görə bilər?

A) Verginin ödənilməsini dərhal dayandıraraq və verginin düzgün hesablanması üçün vergi orqanına bildiriş göndərə bilər

B) Verginin ödənilməsini dərhal dayandıraraq və yuxarı vergi orqanına şikayət edə bilər

C) Verginin ödənilməsini dayandırmadan bilavasitə xüsusi rejimli vergi bölməsinə şikayət edə bilər

D) Verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət edə bilər

E) Verginin ödənilməsini dayandırmadan bilavasitə Nazirlər kabinetinə şikayət edə bilər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

138. Vergi ödəyicisi onun şikayətinə baxılan müddətdə maliyyə sanksiyasının ödənilməsi ilə bağlı aşağıdakı hərəkətlərdən hansını edə bilər?

A) Vergi ödəyicisinin şikayətinə baxılan müddətdə maliyyə sanksiyasını ödəyə bilər

B) Vergi ödəyicisinin şikayətinə baxılan müddətdə maliyyə sanksiyasını sonradan geri almaq şərti ilə ödəyə bilər

C) Vergi ödəyicisinin şikayətinə baxılan müddətdə maliyyə sanksiyasını ödəmiyə bilər

D) Vergi ödəyicisinin şikayətinə baxılan müddətdə maliyyə sanksiyasının 50 faizini ödəməyə borcludur

E) Vergi ödəyicisinin şikayətinə baxılan müddətdə maliyyə sanksiyasını hissə-hissə ödəməyə borcludur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

139. Vergi orqanının hərəkətləri ilə bağlı şikayətlərə hansı qanunvericilikdə müəyyən edilmiş qaydalara əsasən baxılır?

A) Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş qaydalara əsasən baxılır

B) Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydalara əsasən baxılır

C) Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş qaydalara əsasən baxılır

D) Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydalara əsasən baxılır

E) Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən edilmiş qaydalara əsasən baxılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

140. Aşağıdakılardan hansılar fiziki şəxslərin gəlir vergisi ödəyiciləridirlər?

A) Azərbaycan Respublikası ərazisində mənfəət əldə edən qeyri-rezident fiziki şəxslər

B) Dövlət müəssisələri və neft qaz sektorunda çalışmayan fiziki şəxslər

C) Rezident və qeyri-rezident fiziki şəxslər

D) Şəxsi əmlakının satışından gəlir əldə edən fiziki şəxslər

E) Mənfəət vergisinin ödəyicisindən başqa digər vergi ödəyiciləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

141. Vergi tutmanın məqsədləri üçün aşağıdakılardan hansı gəlirə aid deyildir?

A) Qeyri-rezident vergi ödəyicisinin Azərbaycan Respublikası mənbəyindən əldə etdiyi gəlir

B) Muzdlu işlə əlaqədar əldə edilən gəlir

C) Muzdlu ilə əlaqədar olmayan fəaliyyətdən əldə edilən gəlir

D) Əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artımdan olan gəlir

E) Muzdlu əməyin nəticəsində hədiyyə şəklində əldə edilən gəlir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

142. Muzdlu işlə əlaqədar gəlir dedikdə hansı gəlir nəzərdə tutulmur?

A) İşçinin xərclərinin əvəzi ödənildiyi halda ödənilən vəsaitin məbləği

B) İşəgötürən tərəfindən işçiyə malın, işin və ya xidmətin təqdim etdiyi yaxud hədiyyə verdiyi halda yaranan gəlirlər

C) İşçinin işə götürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda ödənilən vəsaitin məbləği

D) İşəgötürən tərəfindən ödənilən sığorta haqları

E) İşçiyə faktiki iş yerindən ödənilən ezamiyyə məbləği

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

143. Muzdlu işə aid olmayan gəlirlər aşağıdakılardan hansılardır?

A) Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər

B) İşçinin xərclərinin əvəzi ödənildiyi halda ödənilən vəsaitin məbləği

C) İşəgötürən tərəfindən ödənilən sığorta haqları

D) Qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikası mənbəyindən əldə etdiyi əmək haqqı

E) İşçinin işə götürənə olan borcunun və ya öhdəliyinin bağışlanıldığı halda ödənilən vəsaitin məbləği

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

144. Sahibkarlıq fəliyyətindən əldə edilən gəlirlərə hansı aid deyildir?

A) Əmlakın icarəyə verilməsindən əldə olunan gəlir

B) Sahibkarlıq fəaliyyəti məqsədləri ilə istifadə olunan aktivlərin təqdim edilməsindən əldə edilən gəlir

C) Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına və ya müəssisənin bağlanmasına razılıq verilməsindən əldə olunan gəlir

D) Əsas vəsaitin təqdim edilməsindən alınan gəlirlər

E) Gəlirdən çıxılan kompensasiya edilən məbləğdən və ya ehtiyatların azalmasından gəlirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

145. Aşağıdakılardan hansı qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə aid deyildir?

A) Sahibkarlıq fəaliyyəti məqsədi ilə istifadə olunmayan aktivlərin satışından əldə olunan gəlir

B) Sahibkarlıq fəaliyyəti məqsədləri ilə istifadə olunan aktivlərin təqdim edilməsindən əldə edilən gəlir

C) Təqvim ili ərzində alınan hədiyyə və mirasların müəyyən məbləği

D) Vəkillik xidmətləri ilə məşğul olan şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlir

E) İdman mərc oyunları ilə əlaqədar əldə edilən uduşlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

146. İki və daha çox yerdə işləyən fiziki şəxsin gəlir vergisinin hesablanması hansı qaydada aparılır?

A) Fiziki şəxsin hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir

B) Fiziki şəxsin hər bir iş yerində aldığı əmək haqqı toplanılır və vergi agenti tərəfindən hesablanaraq dövlət büdcəsinə ödənilir

C) İki və daha çox yerdə çalışan fiziki şəxsər yalnız əsas iş yerindən əldə etdiyi gəlir üzrə gəlir vergisi ödəyir

D) Fiziki şəxs gəlir vergisini növbəli şəkildə dövlət büdcəsinə ödəyir

E) Fiziki şəxs əsas iş yerindən əldə etdiyi gəliri vergi güzəştləri nəzərə alınaraq, digər iş yerlərində vergi güzəştləri nəzərə alınmadın hesablayıb dövlət büdcəsinə ödəyir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

147. Vergi tutulan aylıq gəlirin məbləği 2500 manatadək olduqda verginin hesablanması qaydasını göstərin.

A) 350+2500*14%

B) 350+2500*25%

C) 2500-dək məbləğin 25%-ə hasili

D) 350* 2500-350*25%

E) (2500-200)*14%

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

148. Qeyri-sahibkarlıq fəaliyyətindən Vergi tutulan illik gəlirin məbləği 30000 manatadək olduqda verginin hesablanması qaydasını göstərin.

A) 4200+30000-dək məbləğin 25%-ə hasili

B) 4200+30000-dək məbləğin 14%-ə hasili

C) 4200+30000-dək məbləğin 30%-ə hasili

D) 30000-dək məbləğin 14%-ə hasili

E) 30000-dək məbləğin 25%-ə hasili

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

149. Aşağıda göstərilən gəlirlərdən hansılar fiziki şəxslərin gəlir vergisindən azad deyildir?

A) Təqvim ili ərzində alınan hədiyyə, maddi yardım, birdəfəlik müavinət və mirasların 1000 manatadək olan hissəsi

B) Alimentlər

C) Ailə üzvündən alınan hədiyyə maddi yardım və miraslar

D) Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlər

E) Fiziki şəxslərin əsas iş yerlərindən muzdlu işlə əlaqədar aldıqları əşya şəklində gəlirləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

150. Aşağıdakı fiziki şəxslərdən hansının muzdlu işdən əldə etdiyi gəliri 100 manat məbləğində azaldılmır?

A) Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının

B) Həlak olmuş və yaxud sonradan vəfat etmiş döyüşçülərin valideynləri

C) Daimi qulluq tələb edən, uşaqlıqdan sağlamlıq imkanları məhdud uşağa və ya birinci qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən birinin gəliri

D) Şəxsi mənzili olmayan məcburi köçkünlərin gəliri

E) Əfqanıstana və döyüş əməliyyatları aparılan digər yerlərə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilərin gəliri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

151. Aşağıdakı fiziki şəxslərin hansılarının gəlirinin 400 manatı vergidən azad deyildir?

A) Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının

B) Birinci və ikinci qrup əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşadək olan şəxslərin gəliləri

C) Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanının gəliri

D) Müharibə əlillərinin gəlirləri

E) Qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin gəlirləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

152. Müəssisələrin mənfəətindən neçə faiz vergi tutulur?

A) 0,2

B) 0,22

C) 0,18

D) 0,25

E) 0,27

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

153. Aşağıdakılardan hansı mənfəət vergisindən azad deyildir?

A) Xeyriyyə təşkilatlarının gəlirləri

B) Qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr

C) Beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri

D) Qeri-rezidentin Azərbaycan mənbəyindən əldə etdiyi mənfəəti

E) Dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

154. Mənfəət vergisinin güzəştinə aşağıdakılardan hansı aid deyildir?

A) Xeyriyyə təşkilatlarının sahibkarlıq fəaliyyəti ilə əlaqədar gəlirləri

B) Sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəlirləri

C) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borcunun silinməsindən olan gəlirlər

D) Müvafiq icra hakimiyyətinin qərarına əsasən bir hüquqi şəxsin balansından əvəzsiz olaraq digər hüquqi şəxsin balnsına verilmiş əsas vəsaitlərin dəyəri

E) Alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

155. Rezident fiziki şəxslərin gəlirləri üzrə vergitutma obyekti nədir?

A) Vergi ili üçün rezidentlərin yalnız Azərbaycan mənbəyindən əldə etdiyi gəliri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlir

B) Vergi ili üçün rezidentlərin bütün gəlirləri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ nəzərə alınmadan vergiyə cəlb edilən gəlir

C) Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilən dövr üçün rezidentlərin bütün gəliri ilə həmin dövrdə Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlir

D) Vergi ili üçün rezidentlərin bütün gəlirləri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan, vergiyə cəlb edilən gəlir

E) Vergi ili üçün rezidentlərin yalnız Azərbaycan mənbəyindən əldə etdiyi gəliri ilə həmin dövr üçün Vergi Məcəlləsi ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ nəzərə alınmadan vergiyə cəlb olunan gəlir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

156. Qeyri-rezident vergi ödəyicisinin gəlirinə aşağıdakılardan hansılar aid deyil?

A) Muzdlu işlə əlaqədar əldə edilən gəlir

B) Muzdlu işə aid edilməyən fəaliyyətdən əldə edilən gəlir

C) Vergidən azad edilən gəlirlərdən başqa bütün gəlirlər

D) Faktiki ezamiyyə xərcləri

E) Ölkə daxilində 180 gün ərzində əldə edilən gəlir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

157. Fiziki şəxslərdən ödəmə mənbəyində vergi tutulduğu halda vergiyə cəlb edilən gəlir vergitutma obyekti hesab edilə bilərmi?

A) Bu Gömrük orqanı tərəfindən müəyyən edilir

B) Hesab edilə bilər

C) Bu Nazirlər Kabinetinin qərarı ilə müəyyənləşdirilir

D) Bu Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilir

E) Əldə edilən gəlirin məbləğindən asılı olaraq hesab edilə bilər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

158. Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsi ilə fəaliyyət göstərən qeyri-rezident vergi ödəyicisi hansı gəlirlər üzrə gəlir vergisinin ödəyicisidir?

A) Bütün gəlirlər üzrə

B) Yalnız Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlər üzrə

C) Daimi nümayəndəliyi ilə əlaqədar olmayan vergiyə cəlb edilən gəlirlər üzrə

D) Daimi nümayəndəliyi ilə əlaqədar olan vergiyə cəlb olunan bütün gəlirlər üzrə

E) Daimi nümayəndəliyi ilə əlaqədar olan vergitutma məqsədi ilə gəlir hesab edilməyən gəlilər üzrə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

159. Qeyri-rezident fiziki şəxsin ödəmə mənbəyində vergiyə cəlb edilməsi nəzərdə tutulan ümumi gəliri hansı qaydada vergitutma obyektidir?

A) Xərcdən çıxılan məbləğ nəzərə alınmaqla vergitutma obyektidir

B) Gəlirdən çıxılan məbləğ nəzərə alınmaqla ödəniş yerində vergitutma obyektidir

C) Yalnız sahibkarlıq fəaliyyətindən əldə edilmişdirsə vergitutma obyektidir

D) Gəlirdən çıxılan məbləğ nəzərə alınmadan ödəniş yerində vergitutma obyektidir

E) Heç bir vergi güzəşti nəzərə alınmadan vergitutma obyektidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

160. Məşğulluqdan və ya əmlakın təqdim edilməsindən gəlir əldə edən qeyri-rezident fiziki şəxs hansı gəlirlər üzrə gəlir vergisinin ödəyicisidir?

A) Azərbaycan mənbəyindən təqvim ili ərzində əldə etdiyi bütün gəlirlər üzrə

B) Azərbaycan mənbəyindən və onun hüdudlarından kənarda əld etdiyi bütün növ gəlirlər üzrə

C) Yalnız Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlər üzrə

D) Vətəndaşı olduğu ölkənin gəlirləri üzrə

E) Azərbaycan mənbəyindən il ərzində əldə etdiyi ümumi gəlirdən, həmin dövr üzrə bu gəlirin əldə edilməsi üçün Vergi məcəlləsi ilə müəyyənləşdirilən xərcləri çıxıldıqdan sonra qalan məbləğ üzrə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

161. Vergitutma məqsədləri üçün rezident fiziki şəxsin gəlirləri dedikdə hansı gəlirlər nəzərdə tutulur?

A) Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlər

B) Yalnız Azərbaycan Respublikası hüdudlarında əldə etdiyi gəlirlər

C) Yalnız Azərbaycan Respublikasının hüdudlarında kənarda əldə etdiyi gəlirlər

D) Yalnız sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər

E) Yalnız qeyri-sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

162. Vergitutma məqsədləri üçün qeyri-rezident fiziki şəxsin gəliri dedikdə hansı gəlirlər nəzərdə tutulur?

A) Azərbaycan Respublikası hüdudlarından kənarda əldə edilən gəlirlər

B) Azərbaycan Respublikası mənbələrindən əldə edilən gəlirlər

C) Azərbaycan Respublikası hüdudlarından kənarda və Azərbaycan Respublikası mənbələrindən əldə edilən gəlirlər

D) Rezident olduğu ölkədə əldə etdiyi gəlirlər

E) Rezident olduğu ölkədə yalnız müzdlu işdən əldə etdiyi gəlirlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

163. İşəgötürən tərəfindən fiziki şəxsə banklararası kredit hərracında olan faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə ssuda verildiyi halda hansı məbləğ muzdlu işlə əlaqədar alınan gəlirdir?

A) Ssudanın tam məbləği

B) Bu halda muzdlu işlə əlaqədar gəlir yaranmır

C) Bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli olan məbləğ arasındakı fərq

D) Bu tipli ssudalar üzrə banklararası kredit hərracında olan faiz dərəcəsinə uyğun faizlə ödənməli olan məbləğlə aşağı faiz dərəcəsinə uyğun ödənməli olan məbləğin cəmi

E) Ssudanın müəyyən edilmiş faiz dərəcəsi ilə məbləği

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

164. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq aşağıdakılardan hansı gəlirdən çıxılan xərc hesab olunur?

A) Əsas vəsaitlərin alınmasına və quraşdırılmasına çəkilən xərclər

B) Əyləncə, yemək, işçilərin mənzil və digər sosial xərcləri

C) Faktiki ezamiyyə xərclərinin müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normadan artıq olan hissəsi

D) Ehtiyat fondlarına ayırma məbləği (sığorta və bank fəaliyyəti istisna olmaqla)

E) Sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakter daşıyan vergi ödəyicilərinin bu cür fəaliyyətlə əlaqədar xərcləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

165. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq aşağıdakılardan hansı gəlirdən çıxılan xərc hesab olunmur?

A) Faktiki ezamiyyə xərclərinin müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normadan artıq olan hissəsi

B) Sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakter daşıyan vergi ödəyicilərinin bu cür fəaliyyətlə əlaqədar xərcləri

C) Sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin ehtiyat sığorta fondlarına ayırma məbləğləri

D) Dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri

E) Ağır və zərərli iş şəraitində Müalicə profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vəsaitlərə çəkilən xərclər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

166. Ehtiyat fondlarına ayırma məbləğləri hansı halda gəlirdən çıxılan xərclərə aid edilə bilər?

A) Sığorta fəaliyyəti ilə məşğul olan fiziki şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olmuş normalara uyğun olaraq ayırdığı halda

B) Məcmu mənfəətdən yetəri qədər pul vəsaiti qaldığı halda

C) Pul məbləğlərinin ehtiyat fonduna məcburi şəkildə ayrıldığı halda

D) Xalis mənfəətdən yetəri qədər pul vəsaiti qaldığı halda

E) Xalis mənfəət sıfıra bərabər olduğu halda ehtiyat fonduna ayırma etdikdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

167. Vergi ödəyicisi ümidsiz borc məbləğini gəlirdən çıxmaq hüququna hansı halda malikdir?

A) Əgər malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilməmişdirsə

B) Vergi ödəyicisi əsaslı səbəblərlə vergi orqanına ərizə ilə müraciət etdiyi halda

C) Əgər malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edildiyi və Vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi hallarda

D) Vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silmədiyi halda

E) Vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğini göstərmədiyi halda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

168. Elmi tədqiqat, layihə axtarış və təcrübə konstruktor işlərinə çəkilən xərclər hansı halda gəlirdən çıxılır?

A) Gəlir götürmək məqsədi ilə aparıldıqda

B) Gəlir götürmək məqsədi ilə aparılmadıqda

C) Qeyri-sahibkarlıq fəaliyyətinə aid olduqda

D) Keçən ilki gəlir hesabına aid edildikdə

E) Vergi ödəyicisinin yazılı müraciəti ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

169. Aşağıdakılardan hansı əlavə dəyər vergisinin ödəyicisi deyildir?

A) Aksizli malların istehsalçıları

B) Sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər

C) Azərbaycan Respublikası ərazisinə əlavə dəyər vergisinə cəlb olunan malları idxal edən şəxslər

D) Metropolitenlə sərnişin daşıma xidmətləri

E) Ardıcıl on iki aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200000 manatdan artıq olan vergi ödəyiciləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

170. Aşağıdakılardan hansılar aksizli mallara aid deyildir?

A) İdxal olunan xəz-dəri məmulatları

B) İçməli spirt

C) Neft məhsulları

D) İstirahət və idman üçün istifadə olunan yaxtalar

E) Yük daşımada istifadə olunan gəmilər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

171. Aşağıdakılardan hansılar əmlak vergisinin vergitutma obyekti deyildir?

A) Şəhərlərdə sərnişin daşımaları üçün istifadə olunan avtobuslar, tramvaylar, trolleybuslar

B) Rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalar

C) Rezident və qeyri-rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı vasitələri

D) Müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri

E) Daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərən qeyri-rezidentlər üçün yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsailərin orta illik dəyəri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

172. Aşağıdakı torpaqlardan hansılar torpaq vergisinə cəlb edilir?

A) Yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaq sahələri

B) Fiziki şəxslərin və müəssisələrin istifadəsində olan torpaq sahələri

C) Azərbaycan Respublikası Dövlət Neft fondunun mülkiyyətində olan torpaq sahəsi

D) Meşə və su fondu torpaqları

E) Dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaq sahələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

173. Aşağıdakı variantlardan hansında yol vergisinin ödəyiciləri düzgün qeyd olunmuşdur?

A) Azərbaycan Respublikası ərazisində yalnız benzin, dizel və maye qazın istehsalı, idxalı ilə məşğul olan şəxslər

B) Azərbaycan ərazisində yalnız sərnişin və yük daşımaları həyata keçirən nəqliyyat vasitələrinin sürücüləri olan qeyri-rezident şəxslər

C) Azərbaycan ərazisində sərnişin və yük daşımaları həyata keçirən nəqliyyat vasitələrinin sürücüləri olan qeyri-rezident şəxslər, Azərbaycan ərazisində benzin, dizel və maye qazın istehsalı, idxalı ilə məşğul olan şəxslər

D) Azərbaycan Respublikası ərazisində avtonəqliyyat vasitələrinin istehsalı ilə məşğul olan qeyri-rezident şəxslər

E) Azərbaycan Respublikası ərazisində avtonəqliyyat vasitələrinin istehsalı ilə məşğul olan rezident şəxslər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

174. Mədən vergisinin ödənilməli olduğu vaxt aşağıdakılardan hansılardır?

A) Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən sonra

B) Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 10-dan gec olmayaraq

C) Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 10-dan sonra

D) Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq

E) Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı ay

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

175. Sadələşdirilmiş vergi üçün hesabat dövrü aşağıdakılardan hansı hesab olunur?

A) Bir ay

B) Altı ay

C) Üç ay

D) Gəlirin əldə edildiyi aydan sonrakı ayın 20-nə qədər olan vaxt

E) Rüb

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

176. Müəssisə işçisinə təqvim ili ərzində 6000 manat dəyərində əmək haqqı, 1200 manat dəyərində hədiyyə vermişdir. Təhsil haqqı üçün 1370 manat və xaricdə müalicə olunmaq üçün 3465 manat ödəmişdir. İşçi təhsil haqqının yerli təhsil ocağına və müalicə haqqının xaricdə tibb müəssisəsinə ödənildiyini təsdiq edən müvafiq sənədləri müəssisəyə təqdim etmişdir. Bu halda təqvim ili ərzində işçinin vergi tutulan gəlirini hesablayın.

A) 8035 manat

B) 12035 manat

C) 6000 manat

D) 10665 manat

E) 7370 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

177. Ailədə işləyənlər qeyri-neft sektorunda əmək müqaviləsi ilə işləyir.Ailənin himayəsində 4 azyaşlı uşağı var. Ərin aylıq maaşı 700 manat, arvadın aylıq maaşı 550 manatdır. İş yerinə təqdim olunmuş arayışa əsasən arvadın əmək haqqısından neçə manat gəlir vergisi tutulacaqdır.

A) 74,20 manat

B) 0 manat

C) 77 manat

D) 72.40 manat

E) 78 manat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

178. 2016-cı ilin yekunlarına görə rezident müəssisənin ticarət fəaliyyətindən ümumi gəliri 73000 manat, gəlirdən çıxılan xərcləri 65000 manat olmuşdur. Bu halda vergitutma obyektini tapın

A) 73000 manat

B) 1760 manat

C) 8000 manat

D) 10022 manat

E) 76000 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

179. Şirkət işçilərinin həyat sığortası üzrə yerli və xarici sığorta şirkəti ilə müqavilə bağlamışdır. Bir qisim işçilərin həyat sığortası üzrə yerli sığorta şirkətinə 5000 manat ödənilmiş, digər qisim işçilərin həyat sığortası üzrə xarici sığorta şirkətinə 7000 manat ödənilmişdir. Şirkətin sığorta ödənişləri üzrə gəlirdən çıxılmalı olan məbləğini hesablayın.

A) 12000 manat

B) 2000 manat

C) 7000 manat

D) 6000 manat

E) 5000 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

180. 2017-ci ildə fəaliyyətə başlamış müəssisənin həmin ildə 2300 manat zərəri, eyni zamanda 6700 manat əyləncə, yemək, mənzil və digər sosial xarakterli xərci olmuşdur. 2018-ci ili müəssisə 8400 manat mənfəətlə başa vurmuşdur. Bu halda müəssisənin mənfəət vergisinin vergitutma obyektini tapın.

A) 6100 manat

B) 8400 manat

C) 600 manat

D) 9000 manat

E) 1700 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

181. Hüquqi şəxs olan səhmdar cəmiyyəti 2017-ci ili mənfəətlə başa vurduğuna görə səhmdarlarına 3000 manat məbləğində dividend ayırıb. Səhmdar cəmiyyətin ödəmə mənbəyindən dövlət büdcəsinə və səhmdarlarına ödəyəcəyi dividend məbləğini tapın.

A) 600; 2400 manat

B) 300; 2700 manat

C) 200; 2300 manat

D) 500; 2700 manat

E) 300; 2300 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

182. 2017-ci ilin 1 yanvar tarixində A müəssisəsi özünə məxsus binasını B müəssisəsinə aylıq 2000 manat olmaqla icarəyə vermişdir. B müəssisəsi aylıq 2000 manat icarə haqqını A müəssisəsinə ödəyir və ödəmə mənbəyində heç bir vergi tutmur. A müəssisəsinin əldə etdiyi illik icarə haqqı gəliri nə qədərdir?

A) 16 000 manat

B) 12 000 manat

C) 24 000 manat

D) 48 000 manat

E) 20 640 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

183. Əlavə Dəyər Vergisi ödəyicisi olan müəssisə soyuducu istehsalı ilə məşğul olur. Əlavə Dəyər Vergisiz satış qiyməti 750 manat olan soyuducunu müəssisə öz işçisinə əvəzsiz olaraq vermişdir. Bu halda vergi ödəyicisinin ödəməli olduğu Əlavə Dəyər Vergisini hesablayın.

A) 150 manat

B) 18 manat

C) 375 manat

D) 135 manat

E) 148 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

184. Müəssisə 2017-ci ilin avqust ayında xaricdən gömrük dəyəri 10000 manat olan mal idxal etmişdir. Fərz edək ki, malın gömrük dəyərinə nisbətdə idxal gömrük rüsumu 15% olmaqla 1500 manat, gömrük rəsmiləşdirilməsinə əsasən gömrük yığımı 3% olmaqla 300 manat təşkil etmişdir. Bu halda vergi tutulan idxalın dəyəri və ƏDV məbləğini hesablayın.

A) 0 manat vergi tutulan idxalın dəyəri, 2124 manat ƏDV

B) 1500 manat vergi tutulan idxalın dəyəri, 1118 manat ƏDV

C) 300 manat vergi tutulan idxalın dəyəri, 1118 manat ƏDV

D) 1200 manat vergi tutulan idxalın dəyəri, 2124 manat ƏDV

E) 11800 manat vergi tutulan idxalın dəyəri, 2124 manat ƏDV

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

185. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən qeyri-neft sektorunda çalışan işçinin əmək haqqısı nə qədər olmalıdır ki, 14% gəlir vergisi tətbiq olunsun?

A) 8000 manat

B) 4000 manat

C) 9000 manat

D) 1000 manat

E) 200 manat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

186. Rezident fiziki şəxsin xüsusi mülkiyyətində olan katerin mühərrikinin həcmi texniki pasportuna əsasən 2400 kub $sm^3$dir. Fiziki şəxsin ödəməli olduğu əmlak vergisini hesablayın.

A) 24 manat

B) 48 manat

C) 72 manat

D) 84 manat

E) 36 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

187. Qeyri-rezident fiziki şəxs 2017-ci il ərzində 100 gün müddətində Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş, 5000 manat gəlir əldə etmişdir. Gəlirin əldə edilməsi ilə bağlı xərcləri 2000 manat təşkil etmişdir. Qeyri-rezidentin vergitutma obyektini tapın.

A) 7000 manat

B) 70 manat

C) 5000 manat

D) 3000 manat

E) 80 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

188. Müəssisə 2018-ci ilin yanvar ayında işçiyə məxsus şəxsi avtomobilin sığortası üçün 434 manat sığorta haqqı ödəmişdir. İşçinin aylıq vəzifə maaşı 2700 manatdır. Belə olduğu halda işçinin yanvar ayında vergi tutulan aylıq gəliri nə qədər olacaqdır?

A) 2700 manat

B) 2266 manat

C) 2800 manat

D) 3300 manat

E) 3134 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

189. Mənfəət vergisinin ödəyicisi olan müəssisə öz balansında olan avtomobilini 15000 manat məbləğində sığorta etdirmişdir. Yol qəzası nəticəsində avtomobil yararsız vəziyyətə düşmüşdür. Avtomobilin balan üzrə qalıq dəyəri 9500 manat təşkil edir. Mənfəət vergisindən azad olan məbləği tapın.

A) 5500 manat

B) 9500 manat

C) 15000 manat

D) 24500 manat

E) 23700 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

190. Lənkəran şəhərində qeydiyyatdan keçmiş sadələşdirilmiş vergi ödəyicisinin Bakı və Lənkəran şəhərlərində mağazaları mövcuddur. 2020-ci ilin I rübü ərzində satışdan əldə edilmiş vəsait Bakı şəhərində 17850 manat, Lənkəran şəhərində 3425 manat olmuşdur. Bu halda sadələşdirilmiş verginin məbləğini hesablayın.

A) 714 manat

B) 425,50 manat

C) 851,50 manat

D) 68,50 manat

E) 770 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

191. Müəssisə 2017-ci ilin noyabr ayında 70 $m^3$ mişar daşı, 850 $m^3$ çınqıl xammalı istehsal etmişdir. Belə olan halda mişar daşı və çınqıl xammalları üçün mədən vergisini hesablayın.

A) 35 manat mişar daşı, 425 manat çınqıl

B) 70 manat mişar daşı, 850 manat çınqıl

C) 140 manat mişar daşı, 850 manat çınqıl

D) 140 manat mişar daşı, 425 manat çınqıl

E) 35 manat mişar daşı, 850 manat çınqıl

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

192. Şərab zavodu istehsal binasının hüdudlarından kənara (satış18000 manat (aksiz vergisi nəzərə alınmadan) dəyərində spirtli içkilər buraxmışdır. Fərz edək ki, aksiz vergisi 5000 manat təşkil edir. Bu halda hesablanmış ƏDV məbləğini tapın.

A) 3240 manat

B) 900 manat

C) 2340 manat

D) 4140 manat

E) 4550 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

193. A müəssisəsi qeyri-rezident B müəssisəsindən aldığı borca görə 1300 manat faiz hesablamışdır. A müəssisəsinin ödəmə mənbəyində hesabladığı vergini tapın.

A) 182 manat

B) 156 manat

C) 260 manat

D) 150 manat

E) 130 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

194. Aşağıdakı məlumatlardan hansı vergilərin hesablanması haqqında bildirişdə göstərilmir?

A) Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi

B) Vergi müfəttişinin adı və soyadı

C) Vergi ödəyicisinin adı və obyektin adı

D) Verginin ödənildiyi yer və üsul

E) Bildirişin tarixi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

195. Vergi ödəyicisi vergi hesabatını bilərəkdən yayındırmış və vergi orqanı tərəfindən göndərilmiş bildirişə məhəl qoymamışdır. Vergi orqanı büdcəyə çatacaq vergi borcunu hesablamaq üçün nə etməlidir?

A) Vergi ödəyicisinin borcunu şərti rəqəmə əsasən hesablamalıdır

B) Vergi ödəyicisinin partnyor müəssisələrinə ərizə ilə müraciət edərək məlumat almalıdır

C) Eyni xüsusiyyətli və eynicinsli malların istehsalı ilə məşğul olan vergi ödəyicisinin vergi orqanında olan məlumatlarından istifadə etməlidir

D) Vergi ödəyicisinin fəaliyyətini izləməlidir

E) Vergi hesabatını vergi ödəyicisindən alanadək tələb etməlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

196. Aşağıdakılardan hansı vergilərin ödənildiyi yerə aid deyildir?

A) Bildirişdə göstərilən yer üzrə

B) Vergi ödəyicisinin uçotda olduğu yer üzrə

C) Vergi agentləri ödəmə mənbəyində tutulmuş vergiləri özlərinin uçotda olduğu yer üzrə

D) Hüquqi şəxsin yaşadığı yer üzrə

E) Vergi ödəyicisi olan fiziki şəxsin yaşadığı yer üzrə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

197. Əmlakın hərracda satılması üçün icra məmurunun sifarişinə aşağıdakı sənədlərdən hansı daxil edilmir?

A) İcraata başlanması barədə məhkəmə qərarına əsasən verilən icra sənədinin surəti

B) Əmlakın fotoşəkli, yerləşdiyi ünvan barədə məlumat

C) Əmlakın ilkin satış qiyməti barədə məlumat

D) Əmlakın satışından əldə olunan vəsaitin köçürüləcəyi bank hesabının nömrəsi

E) Əmlakın alınma yeri barədə məlumat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

198. Aşağıda göstərilən şəxslərdən hansılar sadələşdirilmiş vergi ödəyicisi ola bilər?

A) İdman mərc oyunları ilə əlaqədar aparılan mərc oyunlarının operatoru və satıcıları olan şəxslər

B) Aksizli malları istehsal edən şəxslər

C) Kredit və sığorta təşkilatları, investisiya fondları

D) Əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər

E) Qeyri-dövlət pensiya fondları

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

199. Sadələşdirilmiş vergi üçün hesabat dövrü dedikdə aşağıdakılardan hansı nəzərdə tutulur?

A) Bir ay

B) Rüb

C) Altı ay

D) Bir il

E) İki ay

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

200. Aşağıdakılardan hansılar dövlət vergilərinə aid deyildir?

A) Hüquqi şəxslərin mənfəət vergisi

B) Yol vergisi

C) Fiziki şəxslərin gəlir vergisi

D) Hüquqi şəxslərin əmlak vergisi

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

201. Aşağıdakılardan hansına vergitutma və vergi nəzarəti məsələləri daxil edilə bilməz?

A) Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə

B) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə

C) Büdcə qanunvericiliyində müəyyən müddəalara

D) Azərbaycan Respublikasının Konstitusiyasına

E) Hasilatın pay bölgüsü haqqında, əsas boru kəmərləri haqqında və digər bu qəbildən olan sazişlərə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

202. Aşağıdakılardan hansı vergi qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçısı deyildir?

A) Vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxs

B) Vergi agenti hesab edilən hüquqi və fiziki şəxs

C) Azərbaycan Respublikasının dövlət vergi orqanları

D) Azərbaycan Respublikasının Gömrük orqanları

E) Təhsil Nazirliyinin tabeliyində olan Dövlət məktəb və bağçalar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

203. 2015-ci ilin son hesabatlarına əsasən rezident müəssisənin istehsal fəaliyyətindən əldə etdiyi gəliri 180000 manatdır. Bu gəlirin əldə edilməsi üçün çəkilən xərclər isə 70000 manat təşkil etmişdir. Belə olan halda mənfəət vergisini hesablayın.

A) 22000 manat

B) 36000 manat

C) 14000 manat

D) 48000 manat

E) 12000 manat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

204. Əlillərin ictimai təşkilatına məxsus istehsal müəssisəsində 100 nəfər işçi çalışır. Onlardan 60 nəfəri əmək müqaviləsi ilə işləyən əlillər, 40 nəfəri isə əlil olmayan şəxslərdir. 2017-ci ilin nəticələrinə görə həmin istehsal müəssisənin vergiyə cəlb olunan mənfəəti 168000 manatdır. Bu halda müəssisənin büdcəyə ödəməli olduğu mənfəət vergisini hesablayın.

A) 33 600 manat

B) 16 800 manat

C) 22 400 manat

D) 15 200 manat

E) 43 500 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

205. Müəssisə işçisini iki gün müddətinə ezam etmişdir. Ezamiyyətdən qayıtdıqdan sonra işçi avans hesabatı tərtib etmiş və 63 manatlıq faktiki xərc məbləğini təsdiq edən sənədləri hesabata əlavə etmişdir. Fərz edək ki, iki gün üçün xərc norması 40 manatdır. Belə olan halda müəssisənin gəlirdən çıxılan xərci neçə manat olacaqdır?

A) 23 manat

B) 63 manat

C) 40 manat

D) 103 manat

E) 0 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

206. Müəssisə 2016-ci ildə hər birinin ilkin dəyəri 700 manat, qalıq dəyəri 240 manat olan iki ədəd hesablama texnikasını biri 300 manata, digəri isə 220 manata satmışdır. Gəlirə daxil edilən və gəlirdən çıxılan məbləğləri tapın.

A) 60 manat gəlirdən çıxılır, 20 manat gəlirə daxil edilir

B) 400 manat gəlirdən çıxılır, 20 manat gəlirə daxil edilir

C) 20 manat gəlirdən çıxılır, 400 manat gəlirə daxil edilir

D) 520 manat gəlirə daxil edilir, 480 manat gəlirdən çıxılır

E) 460 manat gəlirdən çıxılır, 60 manat gəlirə daxil edilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

207. Fiziki şəxs 1200 manata aldığı kompüteri həmin ildə 800 manata satmışdır, nəticədə 400 manat zərər yaranmışdır. Fiziki şəxs bu zərəri hansı şəkildə kompensasiya edə bilər?

A) Beş il ərzində sair gəlirlər hesabına kompensasiya edə bilər

B) İki il ərzində sair gəlirlər hesabına kompensasiya edə bilər

C) Yalnız 200 manat məbləğində konpensasiya edə bilər

D) Üç il ərzində ehtiyat fonda yığılmış məbləğ hesabına hissə-hissə kompensasiya edə bilər

E) Üç il ərzində kompüterin satışından əldə edilən gəlir hesabına kompensasiya edə bilər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

208. İcarə haqqını vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən vergi ödəyicisi olan fiziki şəxsə ödədikdə, icarə haqqı üzrə vergini dövlət büdcəsinə hansı tərəf ödəyir?

A) 14% dərəcəsi ilə ödəmə mənbəyində icarəyə verən tərəf ödəyir

B) 10% dərəcəsi ilə ödəmə mənbəyində icarəyə verən tərəf ödəyir

C) 14% dərəcəsi ilə ödəmə mənbəyində icarəyə götürən tərəf ödəyir

D) 10% dərəcəsi ilə ödəmə mənbəyində icarəyə götürən tərəf ödəyir

E) Mənfəət əldə edən tərəf ödəyir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

209. Hüquqi şəxsin yenidən təşkili dedikdə aşağıdakılardan hansı nəzərdə tutulmur?

A) İki və daha çox rezident hüquqi şəxsin birləşməsi

B) Rezident hüquqi şəxsin filial və nümayəndəliklərinin yaradılması

C) Rezident hüquqi şəxsin iki və daha çox reizdent hüquqi şəxsə ayrılması

D) Müəssisədə iştirak paylarının azı 50%-nin sahibi olan hüquqi şəxs tərəfindən öz iştirak paylarının hamısının bu hüquqi şəxsin iştirakçılarına paylanması

E) Rezident hüquqi şəxsin aktivlərinin 50 və ya daha çox faizinin digər rezident hüquqi şəxs tərəfindən əldə edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

210. Bağlanmış müqaviləyə əsasən redaksiya tərəfindən romanın jurnalda nəşrinə görə müəllifə 800 manat royalti hesablanmışdır. Bu halda ödəmə mənbəyində hesablanmalı və büdcəyə ödənilməli məbləği hesablayın.

A) 80 manat

B) 96 manat

C) 112 manat

D) 116 manat

E) 200 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

211. Bağlanmış müqaviləyə əsasən redaksiya tərəfindən romanın jurnalda nəşrinə görə müəllifə 800 manat royalti hesablanmışdır. Belə olan halda ödəmə mənbəyindən vergini hansı tərəf hesablayıb, ödəməlidir?

A) Royaltini alan tərəf

B) Hər iki tərəf ayrı-ayrılıqda

C) Bu halda bəyannamə əsasında vergi tutulur

D) Redaksiya

E) Redaksiya tərəfi hesablayır, royaltini alan tərəf büdcəyə köçürmə edir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

212. "0" faiz ƏDV hansı işlərin görülməsinə görə tətbiq olunmur?

A) Qrant müqaviləsi əsasında xaricdən alınan qrantlar hesabına malların idxalına

B) Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi xidmətlərinin göstərilməsinə

C) Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsinə

D) Vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işmisinə mal verməsi habelə barter əməliyyatına

E) Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların rəsmi istifadəsi üçün nəzərdə tutulan malların xidmətlərinə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

213. Yerli vergilər dedikdə aşağıdakı vergilərdən hansılar nəzərdə tutulmur?

A) Fiziki şəxslərin torpaq vergisi

B) Fiziki şəxslərin gəlir vergisi

C) Fiziki şəxslərin əmlak vergisi

D) Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi

E) Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

214. Aşağıdakı xidmətlərdən hansılar vergitutma məqsədi ilə maliyyə xidməti sayılmır?

A) Girov və ya lombard təminatının təqdim edilməsi və qaytarılması

B) Borc öhdəlikləri və tədiyyə vasitələri ilə bağlı əməliyyatlar

C) Numizmatika vasitələrinin tədavülü ilə bağlı əməliyyatlar

D) Törəmə maliyyə vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara və analoji sazişlərə aid əməliyyatlar

E) İnvestisiya fondlarının idarə edilməsi ilə bağlı xidmətlər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

215. Xüsusi vergi rejimli müəssisə dedikdə aşağıdakılardan hansı nəzərdə tutulur?

A) Kiçik sahibkarlıq fəaliyyəti

B) Azərbaycanda daimi nümayəndəlikləri vasitəsi ilə fəaliyyət göstərən xarici müəssislər

C) Yerli müəssisələr

D) Neft və qaz fəaliyyəti haqqında qanunlar çərçivəsində fəaliyyət göstərən, vergilərin hesablanması və ödənilməsi xüsusi qaydalarla müəyyən edilən müəssisələr

E) Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərin, konsulluqların, sahibkarlıq fəaliyyəti ilə məşğul olan ailə üzvlərinin yaratdıqları müəssisələr

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

216. Aşağıda göstərilənlərdən hansılar sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdir?

A) Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarınd200 000 manatdan az olan ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər

B) Əlavə dəyər vergisi ödəyicisi kimi qeydiyyatdan keçən şəxslər

C) Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər

D) Aksizli malların istehsalçıları

E) Muzdlu fəaliyyətdən gəlir əldə edən şəxslər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

217. Aşağıdakı şəxslərdən hansılar vergitutma məqsədi ilə qeyri-rezident hesab edilmir?

A) Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və ailə üzvləri

B) Təqvim ili ərzində üst-üstə düşməklə 182 gündən artıq Azərbaycan Respublikası ərazisində qalan şəxslər

C) Azərbaycan Respublikası ərazisində müəyyən edilmiş qaydalara əsasən dövlət qeydiyyatından keçmiş beynəlxalq təşkilatın əməkdaşı

D) Təqvim ili ərzində 182 gündən az Azərbaycan Respublikası ərazisində qalan şəxslər

E) Azərbaycan Respublikası ərazisindən tranzit olaraq keçən şəxslər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

218. Aşağıdakılardan hansı vergilərin müəyyən edilməsi üçün şərt deyildir?

A) Vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır

B) Eyni vergitutma bazasından bir dəfədən artıq vergi tutulması yolverilməzdir

C) Mülkiyyət formasından və ya kapitalın yerindən asılı olaraq vergilərin müxtəlif dərəcələri müəyyən edilir

D) Vergilər ədadlətlilik prinsipinə əsasən müəyyən edilir

E) Fiziki şəxslərin vətəndaşlığından asılı olaraq müxtəlif vergi dərəcələrinin təyin edilməsi yolverilməzdir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

219. Aşağıdakılardan hansılar dövlət vergilərinə aid deyildir?

A) Fiziki şəxslərin gəlir vergisi

B) Hüquqi şəxslərin mənfəət vergisi

C) Hüquqi şəxslərin əmlak vergisi

D) Fiziki şəxslərin əmlak vergisi

E) Mədən vergisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

220. Vergi qanunverciliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları aşağıdakılardan hansılar deyildir?

A) Vergi ödəyicisi hesab edilən hüquqi və fiziki şəxslər

B) Vergi agenti hesab edilən hüquqi və fiziki şəxslər

C) Azərbaycan Respublikasının gömrük orqanları

D) Azərbaycan Respublikasının maliyyə orqanları

E) Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyicisi olmayan fiziki şəxslər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

221. Müəssisə 2018-ci ilin fevral ayında xaricdən gömrük dəyəri 15000 manat olan mal idxal etmişdir. Fərz edək ki, malın gömrük dəyərinə nisbətdə idxal gömrük rüsumu 15% olmaqla 2250 manat, gömrük rəsmiləşdirilməsinə əsasən gömrük yığımı 2% olmaqla 300 manat təşkil etmişdir. Bu halda, vergi tutulan idxalın dəyəri və ƏDV məbləğini hesablayın.

A) 17550; 3159

B) 15000; 2700

C) 2550; 459

D) 18765; 4345

E) 11345; 3876

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

222. Şirkət işçisini beş gün müddətinə ezamiyyətə yollamışdır. Ezamiyyətdən qayıtdıqdan sonra işçi avans hesabatı tərtib etmiş və 200 manatlıq faktiki xərc məbləğini təsdiq edən sənədləri hesabata əlavə etmişdir. Beş gün üçün xərc norması 150 manat oldugunu nəzərə alsaq, belə olan halda şirkətin gəlirdən çıxılmayan xərci neçə manat olacaqdır?

A) 150 manat

B) 50 manat

C) 200 manat

D) 25 manat

E) 100 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

223. Mənfəət vergisinin ödəyicisi olan müəssisə öz balansında olan avtomobilini 30000 manat məbləğində sığorta etdirmişdir. Yol qəzası nəticəsində avtomobil yararsız vəziyyətə düşmüşdür. Avtomobilin balan üzrə qalıq dəyəri 18000 manat təşkil edir. Mənfəət vergisindən azad olan məbləği tapın.

A) 30 000 manat

B) 18 000 manat

C) 12 000 manat

D) 15 000 manat

E) 9000 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

224. Malların bazar qiyməti müəyyənləşdirilərkən aşağıdakılardan hansılar qiymətə təsir edən amil kimi nəzərə alınmır?

A) Göndərilmiş malların həcmi

B) Öhdəliklərin icra olunması müddəti

C) Mallara tələb və təklifin dəyişməsi

D) Malların istehlakçıları

E) Malların göndərilmə şərtləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

225. Neft sektorunda çalışan işçinin hesablanmış əmək haqqısı 9000 azn təşkil etdiyi halda, nə qədər gəlir vergisi vergi orqanlarına hesablanacaqdır?

A) 1260 manat

B) 1000 manat

C) 140 manat

D) 130 manat

E) 112 manat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

226. İstifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan maddi aktivlər ... adlanır. Nöqtələrin yerinə aşağıdakılardan hansı uyğun gəlir?

A) Maddi ehtiyyatlar

B) Kassada olan pul vəsaitləri

C) Aktivlər

D) Kapital

E) Əsas vəsaitlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

227. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən kompüterlər hansı kateqoriyalı əsas vəsaitlərdir?

A) Qurğu və tikililər

B) Nəqliyyat vasitələri

C) Avadanlıqlar

D) Hesablama texnikası

E) Digər əsas vəsaitlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

228. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilməz?

A) Öz mülkiyyəti olan torpaq sahələri

B) Daxili təsərrüfat yolları

C) Çoxillik əkmələr

D) İşçi məhsuldar heyvanlar

E) Xidmət müddəti bir ildən az olan əşyalar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

229. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilməz?

A) Ötürücü qurğular

B) Mövsümi yollar

C) Öz mülkiyyəti olan torpaq sahələri

D) Torpaqların meliorasiya məqsədlərinə qoyulan kapital qoyuluşları

E) İstehsalat-təsərrüfat inventarları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

230. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilməz?

A) Ölçü-tənzimləyici cihazlar

B) Nəqliyyat vasitələri

C) Qurğular

D) Benzinmotorlu mişarlar

E) Hesablama texnikası

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

231. Hansı aktivlər əsas vəsait olaraq hesaba daxil edilə bilməz və amortizasiya oluna bilməz?

A) Torpaqların qurudulmasına qoyulan kapital qoyuluşları

B) İş-güc maşınları

C) Ötürücü qurğular

D) Qazanxana məntəqəsi

E) İki ildən çox istifadə edilən meşələrdəki müvəqqəti evlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

232. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilər?

A) Balıq ovu alətləri

B) İki il müddətində istifadə etmək üçün meşələrdə olan müvəqqəti evlər

C) Səyyar dartılıb aparılan qızdırıcı evlər

D) Təcrübə üçün saxlanılan heyvanlar

E) Daxili təsərrüfat yolları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

233. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilər?

A) Benzinmotorlu mişarlar

B) Qazanxana məntəqələri

C) Kütləvi istehsal üçün düzəldilmiş xüsusi mexanizmlər

D) Ölçü-tənzimləyici cihazlar

E) Xəzli heyvanlar, arı ailələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

234. Aşağıdakılardan hansı əsas vəsait olaraq hesablarda əks etdirilə bilər?

A) Kütləvi istehsalı üçün düzəldilmiş xüsusi mexanizmlər

B) Qazanxana məntəqələri

C) Ötürücü qurğular

D) Yataq ləvazimatları

E) Benzinmotorlu mişarlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

235. Aşağıdakı əsas vəsaitlərdən hansı illik 10% ilə amortizasiya olunur?

A) İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər

B) İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər

C) Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər

D) Digər əsas vəsaitlər

E) İş heyvanları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

236. Aşağıdakı əsas vəsaitlərdən hansı illik 25% ilə amortizasiya olunmur?

A) İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər

B) Geoloji kəşfiyyat işlərinə çəkilən xərclər

C) Nəqliyyat vasitələri

D) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

E) Təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

237. Aşağıdakı əsas vəsaitlərdən hansılar amortizasiya olunmur?

A) Çoxillik əkmələr

B) Damazlıq heyvanlar

C) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

D) Tam amortizasiya olunmamış əsas vəsaitlər

E) Ötürücü yollar və qurğular

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

238. Aşağıdakı əsas vəsaitlərdən hansılar amortizasiya olunur?

A) Ümumi istifadədə olan avtomobil yolları

B) İstismara verilməmiş anbarda olan əsas vəsaitlər

C) Elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və laboratoriyalarda istifadə edilən avadanlıqlar

D) Müddəti məlum olmayan qeyri-maddi aktivlər

E) İncəsənət əsərləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

239. Aşağıdakı əsas vəsaitlərdən hansılar amortizasiya olunmur?

A) Heyvanxanalarda olan heyvanat aləminin eksponatları

B) Müddəti məlum olmayan qeyri-maddi aktivlər

C) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

D) Çoxillik əkmələr

E) Nəqliyyat vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

240. Aşağıdakı əsas vəsaitlərdən hansılar amortizasiya olunmur?

A) Nadir tarixi memarlıq abidələri olan binalar

B) Anbardan istismara verilmiş əsas vəsaitlər

C) Təbii ehtiyyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər

D) Ümumi istifadədə olan avadanlıqlar

E) Südlük heyvanlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

241. Hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş amortizasiya normalarından aşağı norma tətbiq olunduqda yaranan fərq hesablardan necə silinir?

A) Növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə olunur

B) Növbəti vergi ilində əsas vəsaitin üzərinə kapitallaşdırılır

C) Amortizasiya olunan ildə gəlirdən çıxılan xərclərə əlavə edilir

D) Gəlirdən çıxılmayan xərc olaraq bölüşdürülməmiş mənfəətdən çıxılır

E) Amortizasiya olunan ildə əsas vəsaitin üzərinə kapitallaşdırılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

242. Binalar, tikililər və qurğular üçün amortizasiya ayırmalarının aparılmasının geniş izahı aşağıdakılardan hansıdır?

A) Binalar, tikililər və qurğular illik 7%-zə qədər amortizasiya olunur

B) Binalar, tikililər və qurğular illik 7%-zə qədər amortizasiya olunur və hər tikili üzrə ayrılıqda aparılır

C) Binalar, tikililər və qurğular illik 7%-zə qədər amortizasiya olunur və amortizasiyası kompleks olaraq hamısı bir yerdə aparılır

D) Binalar, tikililər və qurğular illik 7%-zə qədər amortizasiya olunur və onlara çəkilən bütün xərclər kapitallaşdırılır

E) Binalar, tikililər və qurğular illik 7%-zə qədər amortizasiya olunur və onlara çəkilən bütün xərclər gəlirdən çıxılan xərclərə aid edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

243. İllər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə amortizasiya olunan əsas vəsaitlər aşağıdakılardan hansıdır?

A) Maşın və qurğular

B) Nəqliyyat vasitələri

C) İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər

D) İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər

E) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

244. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, aşağıdakı hansı əsas vəsaitlərin ilin sonuna qalıq dəyərinin 2%-ə qədəri gəlirdən çıxılan xərclərə aid edilir?

A) Bina, tikili və qurğular

B) Köhnəlmə hesablanmayan əsas vəsaitlər

C) Nəqliyyat vasitələri

D) İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər

E) İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

245. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, aşağıdakı hansı əsas vəsaitlərin ilin sonuna qalıq dəyərinin 3%-ə qədəri gəlirdən çıxılan xərclərə aid edilir?

A) Bina, tikili və qurğular

B) İstifadə müddəti məlum olan qeyri-maddi aktivlər

C) İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər

D) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

E) Digər əsas vəsaitlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

246. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, aşağıdakı hansı əsas vəsaitlərin ilin sonuna qalıq dəyərinin 5%-ə qədəri gəlirdən çıxılan xərclərə aid edilir?

A) Köhnəlmə hesablanmayan əsas vəsaitlər

B) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

C) Digər əsas vəsaitlər

D) İstifadə müddəti məlum olmayan qeyri-maddi aktivlər

E) Bina, tikili və qurğular

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

247. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, aşağıdakı hansı əsas vəsaitlərin ilin sonuna qalıq dəyərinin 5%-ə qədəri gəlirdən çıxılan xərclərə aid edilmir?

A) Bina, tikili və qurğular

B) Nəqliyyat vasitələri

C) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

D) Maşın və avadanlıqlar

E) Çoxillik əkmələr

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

248. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, aşağıdakı hansı əsas vəsaitlərə çəkilən xərclər gəlirdən çıxılan xərclərə aid edilmir?

A) Bina, tikili və qurğular

B) Müəssisə daxili yollar

C) Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası

D) Müəssisənin elektrik generatorları

E) Köhnəlmə hesablanmayan əsas vəsaitlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

249. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən amortizasiya olunmayan əsas vəsaitlərin təmirinə çəkilən xərclər hesablarda necə əks etdirilir?

A) Əsas vəsaitin balans dəyərini artırır və yenidən amortizasiya hesablanır

B) Əsas vəsaitlərin təmir xərci kimi gəlirdən çıxılan xərclərə aid edilir

C) Əsas vəsaitlərin təmir xərci kimi bölüşdürülməmiş mənfəətdən çıxılır

D) Əsas vəsaitin balans dəyərini artırır və amortizasiya hesablanmır

E) Çəkilən xərcin yarısı əsas vəsaitin balans dəyərini artırır, yarısı isə gəlirdən çıxılan xərclərə aid edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

250. A şirkətinin balansında 18000 azn dəyərində kabel soyan avadanlıq, 9000 azn dəyərində nəqliyyat vasitəsi vardır. Müəssisə il ərzində kabel soyan avadanlığın təmirinə 1400 azn, nəqliyyat vasitəsinin təmirinə isə 850 azn vəsait xərcləmişdir. İlin sonunda A müəssisəsinin (amortizasiya xərci xalis gəlirdən çıxılan xərclərini müəyyən edin.

A) 1550

B) 1350

C) 2250

D) 850

E) 1400

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

251. A şirkətinin balansında 74000 azn dəyərində bina, 63000 azn dəyərində hesablama texnikası vardır. İl ərzində müəssisə binanın təmirinə 12000 azn, hesablama texnikasının təmirinə isə 9300 azn vəsait xərcləmişdir. İlin sonunda müəssisəsinin (amortizasiya xərci xalis gəlirdən çıxılan xərclərini müəyyən edin.

A) 4600

B) 4630

C) 1480

D) 21300

E) 9300

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

252. Müəssisənin balansında 100000 azn dəyərində bina, qalıq dəyəri 0 azn lakin bazar dəyəri 30000 azn olan əsas vəsait, 23000 azn dəyərində isə nəqliyyat vasitəsi vardır. Müəssisə il ərzində binanın təmirinə 3400 azn, amortizasiya olunmayan əsas vəsaitinin təmirinə 800 azn, nəqliyyat vasitələrinin təmirinə isə 9000 azn vəsait xərcləmişdir. İlin sonunda müəssisəsinin (amortizasiya xərci xalis gəlirdən çıxılan xərclərini müəyyən edin.

A) 12400

B) 13200

C) 3150

D) 3950

E) 12250

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

253. Müəssisənin balansında 94000 azn mal material ehtiyyatı, 100000 azn hesablama texnikası, qalıq dəyəri 0 azn lakin bazar dəyəri 5000 azn olan əsas vəsait və 5000 azn dəyərində digər əsas vəsaitləri vardır. Müəssisə il ərzində materialların saxlanılmasına 3000 azn, hesablama texnikasına 8000 azn, amortizasiya olunmayan əsas vəsaitinə 300 azn, digər əsas vəsaitlərin təmirinə isə 1200 azn vəsait xərcləmişdir. İlin sonuna müəssisəsin gəlirdən çıxılmayan xərclərini müəyyən edin.

A) 4350

B) 4050

C) 7350

D) 5150

E) 8150

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

254. Müəssisənin hesablarında ilin əvvəlində qalıq dəyəri 63000 azn olan bina, 92000 azn olan maşın və avadanlıq, 32000 azn olan nəqliyyat vasitələri vardır. İlin sonuna müəssisənin amortizasiya xərcini hesablayın?

A) 26400

B) 22810

C) 29210

D) 30810

E) 35410

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

255. Müəssisənin hesablarında ilin əvvəlində qalıq dəyəri 96200 azn yanacaq tənzimləyici nasos, 48500 azn yanacaq daşıyan Kamaz markalı nəqliyyat vasitəsi, amortizasiya qalığı 0 azn lakin bazar dəyəri 50000 azn olan hesablama texnikası vardır. İlin sonuna müəssisənin amortizasiya xərcini müəyyən edin.

A) 19240

B) 12125

C) 31365

D) 43865

E) 31740

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

256. İlin əvvəlində müəssisənin balansında qalıq dəyəri 23000 azn olan bina, 34000 azn olan nəqliyyat vasitəsi, 12000 azn olan hesablama texnikası vardır. Müəssisə ilin ortasında

təcrübə məqsədi ilə laboratoriyaya dəyəri 24000 azn olan test cihazı alır. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 17910

B) 15510

C) 10100

D) 13110

E) 10110

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

257. A müəssisəsi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərməkdədir. Müəssisə keyfiyyətin və satışın artırılması məqsədi ilə il ərzində qeyri-rezident hüquqi şəxsə 10000 dollar (məzənnə 1.70 azn) ödəyərək yeni fındıq ağacları satın alır. Bu alınan ağacların bar verməsini ən azı 3 il gözləmək məcburiyyətində qalacaq. Əlavə olaraq müəssisənin balansında dəyəri 63000 azn olan fındıq təmizləyən avadanlıq, satışların həyata keçməsi üçün 32000 azn qalıq dəyəri olan nəqliyyat vasitəsi vardır. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 24000

B) 20600

C) 16000

D) 22600

E) 14600

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

258. Müəssisə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərməkdədir və bu sahədə böyük təcrübəyə malikdir. Müəssisənin balansında qalıq dəyəri 100000 azn olan bina, 65000 azn olan torpaq, 35400 azn avadanlıq, 12000 azn dəyərində iş heyvanları vardır. İlin əvvəlində müəssisə yeni növ heyvanların yetişdirilməsi qərarına gəlir və xarici müəssisədən birinin dəyəri 2000 dollar olan (məzənnə 1.70 azn) 7 ədəd damazlıq öküzlər alır. Bu öküzlərin gətirilməsinə isə əlavə olaraq 4000 azn nəqliyyat xərci ödəyir. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 16480

B) 21030

C) 25790

D) 21240

E) 18840

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

259. Müəssisə neft hasilatı sahəsində fəaliyyət göstərməkdədir. İlin əvvəlində müəssisənin balansında qalıq dəyəri 7000000 azn olan bina, 1900000 azn olan neft hasilatı avadanlıqları vardır. Müəssisə yeni neft quyusu müəyyən edir və bu quyunun hasilatının hazırlıq işlərinə 980000 azn məsrəf ödəyir. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 450000

B) 695000

C) 646000

D) 266000

E) 625000

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

260. Müəssisənin ilin əvvəlinə balansında qalıq dəyəri 20000 azn olan bina, 30000 azn olan torpaq sahəsi, 5000 azn hesablama texnikası vardır. İlin əvvəlində müəssisə yeni avadanlıq almaq qərarına gəlir və bu avadanlığın alınmasına qeyri-rezident hüquqi şəxsə 60000 dollar (məzənnə 1.70 azn) ödəyir. Avdanlığın gətirilməsi üçün gömrük rüsumu olaraq 550 azn, idxal rüsumu olaraq 32000 azn, əlavə dəyər vergisi olaraq 18360 azn ödəniş edir (ƏDV əvəzləşəndir). Avadanlıq gətirildiyi vaxtdaca istismara verilir. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 31660

B) 35332

C) 4750

D) 33232

E) 29560

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

261. A müəssisəsi neft hasilatı sahəsində fəaliyyət göstərməkdədir. Mühasibatlıq sahəsinin proqram üzərindən həyata keçirilməsi üçün 01.01.2018 tarixdə xarici müəssisədən dəyəri 10000 dollar (məzənnə 1.70 azn) proqram alır və bu proqramın lisenziyası üçün əlavə olaraq 8400 dollar vəsait ödəyir. Proqram təminatının və lisenziya müddətinin 5 il olduğunu nəzərə alsaq müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 6256

B) 3680

C) 7820

D) 3128

E) 1840

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

262. A müəssisəsi neft hasilatı sahəsində fəaliyyət göstərməkdədir. Neft emalı və satışının həyata keçirilməsi üçün müəssisə dövlət qrumlarından lisenziya almaq məcburiyyətindədir. 01.07.2018 tarixində lisenziya alınır və lisenziyanın alınmasına 80000 azn vəsait xərclənir. Əlavə olaraq müəssisə laboratoriyaya təcrübə məqsədi ilə dəyəri 30000 azn olan neftin tərkibinin ölçülməsi cihazını alır. Lisenziyanın istifadə müddətinin 5 il olduğunu nəzərə alsaq, müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 16000

B) 8000

C) 22000

D) 14000

E) 6000

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

263. A müəssisəsi neft hasilatı sahəsində fəaliyyət göstərməkdədir. Müəssisənin balansında ilin əvvəlinə qalıq dəyəri 60000 azn olan bina, 20000 azn olan hesablama texnikası, 90000 azn olan qurğuları vardır. Müəssisə bu qurğuların idarə edilməsi üçün əlavə olaraq proqram alır və bunun üçün 31000 azn vəsait ödəyir. Proqramın istifadə müddətinin məlum olmadığını nəzərə alsaq müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 18600

B) 30300

C) 21700

D) 33400

E) 15500

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

264. Müəssisə ilin əvvəlində neft qurğularının aşınmasını ölçən cihazı 50000 azn-ə alır, əlavə olaraq avadanlığın daşınması üçün 5400 azn, gömrük rüsumunun ödənilməsi üçün 550 azn, idxal rüsumunun ödənilməsi üçün 9600 azn, əlavə dəyər vergisinin ödənilməsi üçün 9000 azn ödəniş edir( ƏDV əvəzləşdirilən deyil). Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 10000

B) 11080

C) 12990

D) 14910

E) 12030

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

265. Müəssisə ilin əvvəlində süd emalı avadanlığını 64000 azn-ə alır, əlavə olaraq avadanlığın daşınması üçün 7400 azn, işçilərin avadanlığı sazlaması üçün 1300 azn mükafat, gömrük rüsumunun ödənilməsi üçün 550 azn, idxal rüsumunun ödənilməsi üçün 1400 azn, əlavə dəyər vergisinin ödənilməsi üçün 11520 azn ödəniş edir( ƏDV əvəzləşdiriləndir). Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin.

A) 12800

B) 14670

C) 14930

D) 17234

E) 16974

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

266. Müəssisənin balansında 01.01.2018 tarixinə qalıq dəyəri 9000 azn bina, 6200 azn avadanlıq, 7800 azn nəqliyyat vasitəsi vardır. İl ərzində müəssisə binanin təmirinə 300 azn, avadanlığın təmirinə 380 azn, nəqliyyat vasitəsinin təmirinə isə 420 azn vəsait xərcləmişdir. İlin sonunda müəssisənin gəlirdən çıxılan xərcini müəyyən edin ( amortizasiya xərci ilə birlikdə)

A) 4920

B) 4729.9

C) 4600

D) 3200

E) 5000

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

267. Müəssisə ilin əvvəlinə qalıq dəyəri 74000 azn olan nəqliyyat vasitələrini sazlamaq və mühərriklərinin gücünün artırılması üçün vəsait xərcləyir. Beləki nəqliyyat vasitələrinin təmiri üçün 1200 azn , onların mühərriklərinin gücünün artırılması üçün isə 34500 azn vəsait xərcləyir. İlin sonunda müəssisənin gəlirdən çıxılan xərcini müəyyən edin ( amortizasiya xərci ilə birlikdə)

A) 19700

B) 18500

C) 27125

D) 30200

E) 54200

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

268. Aşağıdakılardan hansı icarə predmeti ola bilməz?

A) Torpaq sahələri

B) Binalar

C) Daşınan əşyalar

D) Müəssisələr

E) Bank hesabları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

269. Aşağıdakılardan hansılar iqtisadi mahiyyətinə görə icarə müqaviləsinin növləridir?

A) Daşınan və daşınmaz əmlakın icarəsi

B) Lizing icarəsi və kredit icarəsi

C) Maliyyə icarəsi və lizing icarəsi

D) Maliyyə icarəsi və əməliyyat icarəsi

E) Maliyyə icarəsi və daşınan və daşınmaz əmlakın icarəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

270. İcarəyə verənlə icarədar arasında bağlanmış müqavilədə icarəyə verilən əsas vəsaitlə bağlı nə əks etdirilmir?

A) Əsas vəsaitin forması və əsas göstəriciləri

B) Əsas vəsaitin dəyəri və icarə vaxtı

C) İcarə haqqının məbləği

D) Tərəflərin icarəyə götürülən əmlakın təmiri

E) Əsas vəsaitin alış dəyəri və yığılmış amortizasiyası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

271. Əsas vəsaitin qalıq dəyəri nədir?

A) Əsas vəsaitin ilkin dəyəri ilə ona çəkilmiş xərclərin fərqidir

B) Əsas vəsaitin ilkin dəyəri ilə ona hesablanmış amortizasiya məbləğinin fərqidir

C) Əsas vəsaitin ilkin dəyəri ilə gətirilmə və quraşdırılma xərclərinin fərqidir

D) Əsas vəsaitin ilkin dəyəri ilə bərpa dəyərinin fərqidir

E) Əsas vəsaitə bərpa dəyəri ilə ona hesablanmış amortizasiya məbləğinin fərqidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

272. Əsas vəsait hansı halda müəssisənin balansından çıxa bilməz?

A) Satıldıqda

B) Əvəzsiz verildikdə

C) Müəssisənin tabeçiliyində olan başqa müəssisəyə verildikdə

D) Satış məqsədi ilə debitoruna işlətməsi üçün verildikdə

E) Uzunmüdətli icarəyə verildikdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

273. Xaric edilən və ya gələcəkdə müəssisəyə iqtisadi səmərə (gəlir) gətirməyən əsas vəsaitlər müəssisə tərəfindən necə əks etdirilməlidir?

A) İstismara verilməməli və anbarda saxlanılmalıdır

B) İstismar edilməli lakin yenidən qiymətləndirilməməlidir

C) İstismar edilməli və yenidən qiymətləndirilib amortizasiya olunmalıdır

D) Əsas vəsaitin dəyəri müəssisənin balansından silinməlidir

E) Əsas vəsaitin dəyəri müəssisənin balansında ən aşağı bazar qiyməti ilə saxlanılmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

274. Müəssisənin balansında 01.01.2018-ci il tarixinə qalıq dəyəri 54000 azn olan bina, 18000 azn olan avadanlıq, 14000 azn istismar vaxtı çatmayan çoxillik əkmələr vardır. İlin sonuna müəssisənin amortizasiya xərcini müəyyən edin.

A) 3780

B) 3600

C) 7380

D) 10180

E) 2800

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

275. Şirkətin balansında 31.03.2018-ci il tarixinə qalıq dəyəri 74500 azn olan bina, 64000 azn olan nəqliyyat vasitəsi, 12300 azn olan hesablama texnikası, 9600 azn təcrübə məqsədi ilə laboratoriyada olan test avadanlıqları vardır. İlin sonuna müəssisənin amortizasiya xərcini müəyyən edin.

A) 16000

B) 21215

C) 24290

D) 26210

E) 23135

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

276. Müəssisənin balansında qalıq dəyəri 189000 azn olan bina, istifadə müddəti məlum olmayan və qalıq dəyəri 32000 azn olan qeyri-maddi aktivi, 18600 azn nəqliyyat vasitəsi vardır. Müəssisənin ilin sonuna amortizasiya xərcini müəyyən edin?

A) 13230

B) 16430

C) 21080

D) 7850

E) 17880

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

277. Müəssisənin 01.01.2018-ci il tarixinə qalıq dəyəri 64000 azn avadanlığı, 62000 azn nəqliyyat vasitəsi, istifadə müddəti məlum olmayan 92000 azn qeyri-maddi aktivi vardır. Cari ildə müəssisə avadanlıqlarının təmirinə 10000 azn, nəqliyyat vasitələrinin təmirinə isə 3100 azn pul xərcləmişdir. İlin sonuna müəssisənin amortizasiya və təmir xərcini müəyyən edin.

A) Amortizasiya 40700, təmir 13100

B) Amortizasiya 38860, təmir 6300

C) Amortizasiya 37500, təmir 13100

D) Amortizasiya 28300, təmir 6300

E) Amortizasiya 40700, təmir 6300

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

278. Müəssiənin 01.02.2018-ci il tarixinə qalıq dəyəri 32000 azn hesablama texnikası, 74200 azn nəqliyyat vasitəsi vardır. Müəssisə 01.03.2018-ci il tarixində istifadə müddəti 5 il olan 5100 azn dəyərində qeyri-maddi aktiv alır əlavə olaraqda nəqliyyat vasitələrinin təmirinə 5000 azn pul xərcləyir. İlin sonuna müəssisənin amortizasiya və təmir xərcini müəyyən edin.

A) Amortizasiya 28550, təmir 5000

B) Amortizasiya 28550, təmir 3710

C) Amortizasiya 27722.5, təmir 3710

D) Amortizasiya 28550, təmir 8710

E) Amortizasiya 27722.5, təmir 5000

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

279. Müəssisənin əsas vəsaitlər anlayışını aşağıdakı variantlardan hansı daha dəqiq ifadə edir?

A) Müəssisənin istehsal (xidmət) sferasında 1 ildən daha çox iştirak edən əmək vasitələri

B) Müəssisənin istehsal (xidmət) sferasında 1 ildən daha çox iştirak edən, istehsal (xidmət) prosesində öz natural formasını saxlayan əmək vasitələri

C) Müəssisənin istehsal (xidmət) sferasında 1 ildən daha çox iştirak edən və qiyməti 1000 manatdan çox olan əmək vasitələri

D) Müəssisənin istehsal (xidmət) sferasında 1 ildən daha çox iştirak edən, istehsal (xidmət) prosesində öz natural formasını saxlayan, köhnəldikcə öz dəyərini hissə-hissə məhsulun (xidmətin) üzərinə keçirən əmək vasitələri

E) Müəssisənin istehsal (xidmət) sferasında 6 aydan daha çox iştirak edən və qiyməti 500 manatdan çox olan əmək vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

280. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən, əsas vəsaitlərin kateqoriyalarına aşağıdakılardan hansı aid deyil?

A) Bina tikili və qurgular

B) Maşınlar və avadanlıqlar

C) Nəqliyyat vasitələri

D) Hesablama texnikası

E) İstehsalatda (xidmət) istifadə edilən material və qurğular

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

281. Aşagıdakılardan hansı əmək vasitələri müəssisənin əsas vəsaiti ola bilməz?

A) Cavan və kökəldilməkdə olan heyvanlar

B) İşçi məhsuldar heyvanlar

C) Çoxillik əkmələr

D) Daxili təsərrüfat yolları

E) Torpaqların yaxşılaşdırılmasına (meliorasiya, qurudulmqoyulan kapital qoyuluşları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

282. Aşagıdakılardan hansı əmək vasitələri müəssisənin əsas vəsaiti hesab oluna bilər?

A) Tinglikdə köçürmə məqsədi ilə əkilmiş çoxillik əkmələr

B) İşçi məhsuldar heyvanlar

C) Arı ailələri və təcrübə üçün saxlanılan heyvanlar

D) Dəyərindən asılı olmayaraq kirayə vermək üçün təyin edilmiş əşyalar

E) Xüsusi geyimlər və yataq ləvazimatları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

283. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən,dəyəri nə qədər olan maddi aktivlər əsas vəsait ola bilər?

A) 200 manatdan yuxarı

B) 500 manatdan yuxarı

C) 700 manatdan yuxarı

D) 1000 manatdan yuxarı

E) 2000 manatdan yuxarı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

284. Aşağıdakılardan hansı əmək vasitələri müəssisənin əsas vəsaiti ola bilməz?

A) Dəyərindən asılı olmayaraq xidmət müddəti 2 ildən az olan əşyalar

B) İstehsalat-təsərrüfat inventarları(ləvazimatları)

C) Balıq ovu alətləri

D) Ötürücü qurğular

E) Daxili təsərrüfat yolları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

285. Aşağıdakılardan hansı əmək vasitələri müəssisənin əsas vəsaiti hesab oluna bilər?

A) Ötürücü qurğular

B) Çaylarda istifadə edilən artırma trosları

C) Benzin motorlu mişarlar

D) Fərdi sifarişlər üçün düzəldilmiş xüsusi mexanizmlər

E) Cavan kökəldilməkdə olan heyvanlar, xəz heyvanları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

286. Azərbaycan Respublikası Vergi Məcəlləsinə görə, əsas vəsaitlərin amortizasiyası hansı metodla hesablanır?

A) Düz xətli metod

B) Qalıq dəyəri metodu

C) İstehsal metodu

D) İstifadə müddətinin illərinin cəmi metodu

E) Azalma metodu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

287. Əsas vəsaitlər mühasibat uçotuna hansı dəyər ilə əks etdirilir?

A) Əsas vəsaitin alış məbləği ilə

B) Əsas vəsaitin alınmasına çəkilən xərclər ilə

C) Əsas vəsaitin alış məbləği və onun quraşdırılmasına çəkilən məbləğ ilə

D) Əsas vəsaitin alış məbləği, onun quraşdırılmasına çəkilən məbləğ və ödənişdə əvəzləşən əlavə dəyər vergisi ilə

E) Əsas vəsaitin alış məbləği, onun quraşdırılmasına çəkilən məbləğ və ödənişdə əvəzləşən aksiz vergisi ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

288. Maliyyə icarəsi (lizing) haqda aşağıdakılardan hansı yalnışdır?

A) Maliyyə icarəsinin obyekti icarəçinin balansına keçir

B) Obyektin icarəyə verilməsi qəbul-təhvil aktı ilə sənədləşdirilir

C) İcarəçi mülkiyyət sahibi kimi icarəyə götürdüyü əsas vəsaitə görə, köhnəlmə hesablaya bilməz

D) İcarəyə verilmiş əsas vəsaitlər müqavilənin şərtlərindən asılı olaraq, icarədarın balansından çıxa da bilər, qala da bilər

E) İcarəyə götürülmüş əsas vəsaitlər icarəçilər tərəfindən əsas vəsaitlər hesabında uçota alınır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

289. Əsas vəsaitlər müəssisənin balansından aşağıda verilmiş hansı halda çıxa bilməz?

A) Satıldıqda

B) Ləğv edilib silindikdə

C) Maliyyə qoyuluşu qaydasında digər müəssisələrin kapitalında iştirak payı kimi verildikdə

D) Təbii fəlakət, inventarlaşma nəticəsində və başqa səbəblərdən əksik gəldikdə

E) Qısamüddətli icarəyə verildikdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

290. Müəssisələrə əsas vəsaitlər hansı mənbələrdən daxil ola bilməz?

A) Təsisçilərin pay qoyuluşu şəklində

B) Müəssisələrin özü tərəfindən istehsal edilən əsas vəsaitlər

C) Başqa şəxs və təşkilatlardan əvəzsiz olaraq daxil olduqda

D) Dövlət orqanları tərəfindən verildikdə

E) Qısamüddətli icarəyə götürdükdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

291. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən, amortizasiya olunmayan əsas vəsaitlərə çəkilən xərclər necə silinir?

A) Gəlirdən çıxılan xərclərə aid edilir

B) Gəlir kimi tanınır və silinmir

C) Əsas vəsaitin balans dəyərinə əlavə olunur

D) Bölüşdürülməmiş mənfəətdən çıxılır

E) İstehsalat xərcləri olaraq silinir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

292. Müəssisənin balansında qalıq dəyəri 180000 azn olan bina, 84000 azn dəyərində nəqliyyat vasitələri və 47000 azn avadanlıq vardır. Müəssisə amortizasiya uçotunu qalıq dəyər metodu ilə hesablamaqdadır. Müəssisənin ilin sonuna amortizasiya xərcini hesablayın.

A) 12600

B) 21000

C) 9400

D) 33600

E) 43000

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

293. Müəssisənin 2017-ci ilin əvvəlində qalıq dəyəri 85000 azn mal material, 1630000 azn dəyərində bina tikili, 63000 azn dəyərində nəqliyyat vasitələri var idi. Müəssisə 2017-ci il üçün əsas vəsaitlərini amortizasiya etmiş və xərc olaraq silmişdir. Müəssisənin amortizasiya uçotunu qalıq dəyər metodu ilə hesabladığını nəzərə alsaq, 2018-ci il üçün bu əsas vəsaitlərin amortizasiya məbləğini hesablayın.

A) 129850

B) 146850

C) 106113

D) 11812.5

E) 117925.5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

294. Müəssisənin 2017-ci ilin əvvəlində qalıq dəyəri 950000 azn dəyərində bina tikili, 61000 azn dəyərində nəqliyyat vasitələri, 45000 azn dəyərində avadanlığı var idi. Müəssisə 2017-ci il üçün əsas vəsaitlərini amortizasiya etmiş və xərc olaraq silmişdir. Müəssisənin amortizasiya uçotunu qalıq dəyər metodu ilə hesabladığını nəzərə alsaq, 2018-ci il üçün bu əsas vəsaitlərin amortizasiya məbləğini hesablayın.

A) 73282.5

B) 80482.5

C) 18637.5

D) 69045

E) 61845

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

295. Aylıq gəlirdən verginin tutulması mexanizmini təyin edin:

A) 1500 manatadək olan məbləğin 14% və 1500 manatdan çox olduqda isə 210 manat + 1500 manatdan çox olan məbləğin 25 faizi

B) 2500 manatadək olan məbləğin 14% və 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi

C) 3000 manatadək olan məbləğin 14% və 3000 manatdan çox olduqda isə 420 manat + 3000 manatdan çox olan məbləğin 25 faizi

D) 2500 manatadək olan məbləğin 14% və 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 35 faizi

E) 2000 manatadək olan məbləğin 14% və 2000 manatdan çox olduqda isə 280 manat + 2000 manatdan çox olan məbləğin 35 faizi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

296. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən amortizasiya olunmayan əsas vəsaitlər hansılardır?

A) Konservasiya edilmiş əsas vəsaitlər

B) Binalar,tikililər, qurğular

C) İş heyvanları

D) Geoloji kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər

E) Qeyri-maddi aktivlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

297. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən amortizasiya olunan aktivləri göstərin.

A) Torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular

B) Elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə, laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar

C) Geoloji kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər

D) Kitabxana fondları, kinofondlar, səhnə rekvizitləri, muzey sərvətləri

E) İstismara yararlı olduğu halda tam amortizasiya olunmuş əsas vəsaitlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

298. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən əsas vəsaitlərin kateqoriyaları üzrə amortizasiya ayırmaları hansı qaydada hesablanır?

A) Amotizasiya normasını həmin kateqoriyaya aid olan əsas vəsaitin vergi ilinin sonuna qalıq dəyərinə tətbiq etməklə

B) Amotizasiya normasını həmin kateqoriyaya aid olan əsas vəsaitin vergi ilinin ortasına qalıq dəyərinə tətbiq etməklə

C) Amotizasiya normasını həmin kateqoriyaya aid olan əsas vəsaitin vergi ilinin ortasına balans dəyərinə tətbiq etməklə

D) Amotizasiya normasını həmin kateqoriyaya aid olan əsas vəsaitin vergi ilinin əvvəlinə olan ilkin dəyərinə tətbiq etməklə

E) Amotizasiya normasını həmin kateqoriyaya aid olmayan əsas vəsaitin vergi ilinin ortasına qalıq dəyərinə tətbiq etməklə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

299. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərqi hansı şəkildə bağlamaq olar?

A) Əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğindən çıxıla bilər

B) Əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər

C) Əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğindən çıxıla bilməz

D) Əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərq növbəti vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğinə bölünə bilər

E) Əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş normadan aşağı norma tətbiq edildikdə yaranan fərq əvvəlki vergi illərində amortizasiyanın gəlirdən çıxılan məbləğindən əlavə oluna bilər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

300. Azərbaycan Respublikası Vergi məcəlləsinə əsasən əsas vəsaitlərin təqdim edilməsindən əldə olunan məbləğ həmin əsas vəsaitin qalıq dəyərindən artıq olduqda yaranmış fərq necə istifadə olunur?

A) Gəlirdən çıxılır

B) Olduğu kimi qalır

C) Gəlirə daxil edilir

D) Cari ildə alınmış əsas vəsaitin dəyərinə əlavə edilir

E) Cari ildə alınmış əsas vəsaitin dəyərindən çıxılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

301. Müəssisə 2016-cı ilin noyabr ayında dəyəri 10000 manat olan avtonəqliyyat vasitəsi almışdır. 2016-cı ilin sonuna amortizasiya illik maksimal həddən aşağı, 18% dərəcəsi ilə hesablanmışdır. 2017-ci il üçün maksimal hədlə hesablama aparıldığını nəzərə alaraq vergi ödəyicisinin 2017-ci ilin sonuna amortizasiya üzrə gəlirdən çıxılmalı olan məbləğini hesablayın.

A) 700 manat

B) 1800 manat

C) 2050 manat

D) 2750 manat

E) 2500 manat

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

302. Azərbaycan Respublikasında daimi nümayəndəliyi vasitəsi ilə fəaliyyət göstərən qeyri-rezident fiziki şəxsin daimi nümayəndəliyi ilə əlaqədar gəlirindən vergi necə tutulur?

A) Ödəmə mənbəyində gəlirdən xərclər çıxılmamaqla

B) Gəlirdən gəlirin əldə edilməsi üçün, Azərbaycan Respublikasının hüdudlarından kənarda çəkilən xərclər çıxılmaqla

C) Daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirdən, gəlirin əldə edilməsi üçün çəkilən xərclər çıxılmaqla

D) Ödəmə mənbəyində əldə edilən gəlirdən bütün xərclər çıxılmaqla

E) Daimi nümayəndəliklə bağlı əldə edilən ümumi gəlirdən heç bir vergi güzəşti çıxılmadan

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Vergi Məcəlləsi

303. İşçilərə ilkin təlimatı kim keçir?

A) Əməyin mühafizə şöbəsinin mühəndisi

B) Əməyin mühafizəsi şöbəsinin rəisi

C) Sahə və ya işin rəhbəri

D) Həmkarlar ittifaqı komitəsinin sədri

E) Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

304. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D) Əməyin mühafizəsi otağında

E) Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

305. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A) Təkrar təlimat

B) İlkin təlimat

C) Növbədənkənar təlimat

D) Birdəfəlik təlimat

E) Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

306. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A) İlkin, giriş və növbədənkənar

B) İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C) Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D) Giriş, vaxtaşırı və növbədənkənar

E) Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

307. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 8 saatdan artıq olmamalıdır

B) 10 saatdan artıq olmamalıdır

C) 7 saatdan artıq olmamalıdır

D)  5 saatdan artıq olmamalıdır

E)  6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

308. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A)  40 saatdan artıq olmamalıdır

B)  35 saatdan artıq olmamalıdır

C)  36 saatdan artıq olmamalıdır

D)  33 saatdan artıq olmamalıdır

E)  45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

309. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

310. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

311. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

312. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

313. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

314. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

315. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

316. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

317. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və  əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

318. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı  2008

319. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

320. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

321. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

322. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

323. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

324. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

325. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

326. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

327. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

328. Hansı hündürlükdən başlayaraq“Yüksəklikdə görülən işlər”anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

329. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

330. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

331. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

332. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

333. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

334. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Кompyuterdən, printerdən. Proyektordan

C) Кompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

335. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

336. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələri

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

337. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

338. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

339. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri
B) Görmək və eşitmək üçün mühafizə vasitələri
C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri
D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri
E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri
Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999